RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 57 (8373) ŞƏNBƏ, 14 mart 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Azərbaycanda çoxpartiyalı Milli Məclis formalaşdı

**Azərbaycanda VI çağırış Milli Məclisin yeni tərkibi formalaşdı və martın 10-da parlamentin ilk iclası keçirildi. Prezident İlham Əliyevin iştirak etdiyi iclasda Milli Məclisin yeni sədri, vitse-spikerlər, yeni komitə və komissiya rəhbərləri də seçildi.**

## Yenilənmiş parlament Prezident İlham Əliyevin genişmiqyaslı və çoxşaxəli islahatlarının daha da dərinləşməsinə müsbət töhfə verəcək

### Bitərəf və partiya rəhbərlərinə böyük etimad

İlk dəfə olaraq parlament rəhbərliyi çoxpartiyalılıq prinsipi əsasında müəyyənləşdi. Prezident İlham Əliyevin yürütdüyü daxili və xarici siyasətə, bütün sahələrdə həyata keçirdiyi mütərəqqi islahatlara öz funksiyaları və səlahiyyətləri çərçivəsində dəstək verəcək parlament rəhbərliyində həm bitərəflər, həm də azlıqda olan partiyaların nümayəndələri təmsil olundular. Bitərəflər və azlıqda olan partiyaların nümayəndələri həm də Milli Məclisin daimi komitələrinə sədr seçildilər. Qeyd edək ki, yeni parlamentdə Yeni Azərbaycan Partiyası 70, müstəqillər 39, digər partiyalar 12 deputatla təmsil olunurlar. Müstəqil Azərbaycan parlamentinin tarixində ilk dəfə qadın deputat Sahibə Qafarova Milli Məclis Sədri seçildi. Birinci vitse-spiker Əli Hüseynli, vitse-spikerlər isə Adil Əliyevlə Fəzail İbrahimli oldu.

Beləliklə, yenilənmə həm mövcud parlamentin tərkibində, həm də ali qanunvericilik orqanının rəhbərliyində - spiker və onun müavinləri, komitə, komissiya sədrlərinin formalaşması prinsipində də özünü göstərdi.

Prezident İlham Əliyev parlamentin ilk iclasında həm seçkilərin keçirilməsini, seçki prosesi ilə bağlı beynəlxalq təşkilatların, müşahidə qruplarının rəylərini dəyərləndirdi, həm də yeni tərkibə tövsiyələrini verdi.

Altıncı çağırış parlamentin uğurla fəaliyyət göstərəcəyinə, aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirən Prezident vurğuladı ki, siyasi sistemin möhkəmləndirilməsi, siyasi münasibətləri sağlam zəmində inkişaf etdirmək üçün bütün partiyaların nümayəndələri Milli Məclisin rəhbərliyində və komitələrinin rəhbərliyində təmsil olunmalıdırlar. Yeni formalaşan tərkib bunun bariz nümunəsidir.

Dövlət başçısı çoxpartiyalı parlamentin formalaşmasını demokratiyanın inkişafında önəmli addım adlandırdı: "Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır...

Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq".

*Ardı 4-cü səh.*

## Abşeron, Xızı, Siyəzən və Şabran rayonlarında yaşayış məntəqələrinin qazlaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Abşeron, Xızı, Siyəzən və Şabran rayonlarında ərazi vahidlərinin, o cümlədən yeni yaşayış massivlərinin (siyahı əlavə olunur) qazlaşdırılması işlərinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.11.1-ci yarımbəndində göstərilmiş məbləğin 10,92 milyon (on milyon doqquz yüz iyirmi min) manatı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

## İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikası Milli Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESKO) İcraiyyə Şurasının 2020-ci il 29-30 yanvar tarixində Əbu-Dabi şəhərində keçirilmiş 40-cı sessiyasında təşkilatın adının dəyişdirilərək İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) olması ilə əlaqədar **qərara alıram:**

1. İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının aşağıdakı yeni tərkibi təsdiq edilsin:

**Komissiyanın sədri**

Azərbaycan Respublikasının Mədəniyyət naziri

**Komissiyanın üzvləri**

Azərbaycan Respublikasının Xarici İşlər nazirinin müavini

Azərbaycan Respublikası Təhsil nazirinin müavini

Azərbaycan Respublikası Gənclər və İdman nazirinin müavini

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər nazirinin müavini

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavini

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti

Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini

Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) İdarə Heyəti sədrinin müavini

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru

ICESCO İcraiyyə Şurasının üzvü, Milli Komissiyanın Baş katibi.

2. "İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ISESKO) üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 yanvar tarixli 1685 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 1, maddə 94) 1-ci hissəsi ləğv edilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

## A.H.Naxçıvanlının 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Aqiyə Həbib qızı Naxçıvanlı 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

## M.Ə.Məmmədovun Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Əhməd oğlu Məmmədov Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin sədri vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

## Strateji tərəfdaşlıq nümunəsi

### Türkmənistan Prezidentinin Azərbaycana rəsmi səfəri dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcək

**"Xalqlarımız arasında qardaşlıq münasibətlərinin çoxəsrlik tarixi var. Bu, dostluğun, qardaşlığın, qarşılıqlı dəstəyin tarixidir. Biz həmişə bir-birimizi dəstəkləmişik, bir-birimizin uğurlarına həmişə sevinmişik. Bu gün biz iki müstəqil dövlət olaraq fəal surətdə öz gələcəyimizi qururuq". Prezident İlham Əliyevin türkmən həmkarı Qurbanqulu Berdiməhəmmədovla Bakıdakı təkbətək görüşdə söylədiyi bu ilk cümlələr iki türk dövləti arasındakı münasibətləri tam mahiyyəti ilə ifadə edir. Eyni zamanda İlham Əliyevin bu sözləri Qurbanqulu Berdiməhəmmədovun Azərbaycana rəsmi səfərinin hansı atmosferdə keçdiyini göstərdi.**

### Milli ortaqlıqdan başlanan tərəfdaşlıq

Ortaq milli kimlikləri, mədəni və mənəvi dəyərləri ilə bir-birinə bağlı olan türk dövlətlərinin bu gün daha geniş əməkdaşlıq qurmaları, həmrəylik nümayiş etdirmələri olduqca vacibdir. Çünki qloballaşan dünyada, prinsipləri sürətlə dəyişən beynəlxalq münasibətlər sistemində türk dövlətlərinin öz müstəqilliklərini daha da möhkəmləndirmələri, siyasi-iqtisadi maraqlarını layiqli şəkildə təmin edə bilmələri baxımından vacib elementlərdir.

*Ardı 4-cü səh.*

### Milli Məclisin iclasında

## Parlamentin yaz sessiyasının qanunvericilik işləri planı təsdiqləndi

**Dünən Milli Məclisin yaz sessiyasının növbəti plenar iclası keçirildi. Spiker Sahibə Qafarovanın sədrliyi ilə keçirilən iclasda ilk olaraq Milli Məclis üzvlərinə deputat vəsiqələri təqdim edildi. Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov çıxış edərək bildirdi ki, rəhbəri olduğu qurum seçki qanunvericiliyinin tələblərinə uyğun olaraq vəzifəsini uğurla həyata keçirib. İndi isə VI çağırış parlament seçkiləri ilə bağlı MSK son missiyasını həyata keçirəcək. Sonra Məzahir Pənahov deputatlara vəsiqələrini təqdim etdi.**



### Azərbaycan iqtisadiyyatının sabit qalması üçün kifayət qədər imkanlar var

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıldı. İclasın gündəliyinə 18 məsələ daxil edilmişdi. Bunların sırasında Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il yaz sessiyasının qanunvericilik işləri planı, "Əmanətlərin tam sığortalanması haqqında" və Milli Məclisin komitələrinin üzvlərinin seçilməsi barədə və digər məsələlər var idi.

İclasda ilk olaraq Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" və "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanunlarında dəyişiklik edilməsi barədə Konstitusiya Qanunu (ikinci səsvermə) təsdiqləndi.

"Əmanətlərin tam sığortalanması haqqında" qanunu nunda dəyişiklik edilməsi barədə layihə haqqında parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verdi. Qeyd edildi ki, "Əmanətlərin tam sığortalanması haqqında" qanun 2016-cı il martın 4-dən qüvvəyə minib və bu il martın 4-də qüvvədə olma müddəti başa çatıb. Qanun layihəsində əmanətlərin tam sığortalanması müddətinin 9 ay, bu ilin dekabrın 4-dək uzadılması nəzərdə tutulur. Bunda məqsəd əhalinin əmanətlərinin qorunmasıdır.

*Ardı 3-cü səh.*

## Ermənistanda referendum xaosu davam edir

**Ermənistanda cərəyan edən son hadisələrin təhlili bu ölkədə baş nazir Nikol Paşinyana qarşı dərin bir etimadsızlığın hökm sürdüyünü üzə çıxarır. Dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlar atır. Məhz belə vəziyyətdə problemlər içərisində boğulan Ermənistan əhalisi yeni hökumətə də etibar etmir. Aprelin 5-də keçiriləcək referendumda əksər siyasi qüvvələr iştirak etmək istəmədiklərini bildirdikləri halda Paşinyan geri çəkilmək niyyətində deyil. Eyni zamanda ermənilər bu şounun onların həyatlarını yaxşılığa doğru dəyişməyəcəyinə inanır, səs verməyə getməməkdə israrlıdırlar.**

"Lragir" qəzeti yazır ki, Paşinyan referendumla bağlı təbliğatın azaldılması barədə vəkillərinə göstərişlər verib. Vurğulanır ki, referendum payıza qədər təxirə salına bilər. Hakimiyyətin koronavirusu əsas gətirərək referendumu ləğv etməsi də müzakirə mövzusuna çevrilib. Erməni siyasi ekspertlər koronavirusun Paşinyan üçün şans ola biləcəyini bildiriblər. Onlar 5 apreldə seçki məntəqələrinə elə də çox adamın gəlməyəcəyini düşündüklərinə görə, referendumun Paşinyan üçün uğursuz olacağını vurğulayırlar.

"Qolos Armeniya" saytı yazır ki, koronavirus təhlükəsi fonunda keçmiş baş nazir Qant Baqratyan da referendumun ləğvinə çağırış edib. Sabiq həmkarının bu çağırışı Paşinyan üçün elə bil göydəndüşmə olub. Çünki Paşinyan və onun komandasının açıq-aşkar hədə-qorxu ilə müşayiət olunan təşviqat kampaniyası elə də effekt vermir. Baş nazir bütün mətbuat konfranslarında hökumətin onun rəhbərliyi altında boş oturmadığını, vətəndaşların həyatını yaxşılaşdırmağa çalışdığını deyərək 100 fakt səsləndirir.

*Ardı 7-ci səh.*

# Nazirlər Kabineti yanında operativ qərargahın müşavirəsi keçirilib



**Martın 13-də Nazirlər Kabineti yanında operativ qərargahın müşavirəsi keçirilib.**

Operativ qərargahdan AZƏRTAC-a bildiriblər ki, iclasda COVID-19 virusu pandemiyasının ölkəmizdə yayılmasının qarşısının alınması məqsədilə müzakirələr aparılıb. Nazirlər Kabinetinin müşavirəsində təcili, təxirəsalınmaz və icrası məcburi olan bir sıra qərarlar qəbul edilib. Qəbul olunmuş qərarlar əsasında aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib. COVID-19 virusunun daha geniş yayılmasının qarşısının alınması məqsədilə təxirəsalınmaz profilaktik tədbirlər davam etdirilir. Azərbaycan dövləti öz vətəndaşlarının təhlükəsizliyinin təmin olunması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq bütün öhdəlikləri yerinə yetirir.

# Moskvada MDB İqtisadi Şurasının 85-ci iclası keçirilib



Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) İqtisadi Şurasının 85-ci iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanı iclasda Baş Nazirin birinci müavini Yaqub Eyyubov və ölkəmizin Rusiyadakı səfiri Polad Bülbüloğlu təmsil ediblər.

İclasın gündəliyinə MDB-yə üzv dövlətlərin iqtisadi əməkdaşlıq sahələrini əhatə edən məsələlər daxil edilib.

İclası İqtisadi Şuranın sədri, Özbəkistan Respublikasının Baş Nazirinin müavini - İqtisadiyyat və Sənaye naziri Cəmşid Kuçkarov aparıb.

Tərəflər iclasda Özbəkistanın 2030-cu ilədək olan dövrdə MDB-nin iqtisadi inkişaf Strategiyası layihəsinə MDB Hökumət Başçıları Şurasının növbəti iclasında baxılması təşəbbüsünü dəstəkləyiblər.

Şura üzvləri 2030-cu ilədək olan dövrdə nəqliyyat sahəsində əməkdaşlığın prioritet istiqamətləri layihəsini bəyənib, həmçinin 2020-2023-cü illər üçün razılaşdırılmış sosial və demoqrafiya siyasəti Konsepsiyasının icrası üzrə Tədbirlər Planını qəbul ediblər.

Dövlət Başçıları Şurasının 28 sentyabr 2018-ci il tarixli qərarı ilə 2021-ci il MDB-də Memarlıq və Şəhərsalma İli elan edilib. İclas iştirakçıları tərəfindən qəbul edilən Tədbirlər Planına müvafiq olaraq, 2021-ci il ərzində memarlıq və şəhərsalma mövzusunda forum və müsabiqələr, sərgilər, tematik elmi-praktik konfranslar, "dəyirmi masa"lar və seminarlar keçirilməsi nəzərdə tutulur.

MDB-nin iştirakçı dövlətlərinin bitkilərin karantini sahəsində kadrların təkmilləşdirilməsi və yenidənhazırlanması üzrə baza təşkilatı haqqında Əsasnaməyə dəyişikliklər bəyənilib. Bundan əlavə, MDB İqtisadi Şurasının üzvlərinə müxtəlif informasiya-analitik və sorğu materialları təqdim edilib.

MDB İqtisadi Şurasının növbəti, 86-cı iclası iyunun 19-da Moskvada, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində milli pavilyonlardan birində təşkil olunacaq.

MDB İqtisadi Şurasının iclası başa çatdıqdan sonra nümayəndə heyətləri "MDB+dünya" Beynəlxalq İqtisadi Forumunun işində iştirak ediblər.

## Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin bütün nəqliyyat vasitələri üçün müvəqqəti bağlanması barədə qərar qəbul edilib

**Martın 13-də Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov ilə Gürcüstanın Baş Naziri Giorgi Qaxariya arasında telefon danışığı olub.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, hər iki ölkənin vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi və sağlamlığının qorunması məqsədilə hökumət başçılarının qarşılıqlı razılığına əsasən, 2020-ci il 14 mart saat 00:00-dan etibarən 10 günlük müddətə Azərbaycan və Gürcüstan arasında dövlət sərhədinin bütün nəqliyyat vasitələri üçün müvəqqəti bağlanması barədə qərar qəbul edilib. Azərbaycan ərazisində olan Gürcüstan vətəndaşlarının ölkədən çıxmasını, Gürcüstan ərazisində olan Azərbaycan vətəndaşlarının ölkəyə gəlməsini təşkil etmək üçün zəruri dəhliz təmin olunacaq. Eyni zamanda, yükdaşımaların həyata keçirilməsi üçün tranzit dəhliz də fəaliyyət göstərəcək.

## *Operativ qərargah:* "Həyata keçirilən tədbirlər çərçivəsində ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaq"

**Sosial şəbəkələrdə və "WhatsApp" ani mesajlaşma əlavələri vasitəsilə koronavirus infeksiyasının yayılmasına yol verməmək üçün Bakı şəhərində ərzaq mağazalarının bağlanacağı və onların iş rejiminə ciddi fasilələr tətbiq olunacağı barədə səs yazısı yayılır.**

Nazirlər Kabineti yanında operativ qərargahdan AZƏRTAC-a verilən məlumata görə, hazırda əhalinin sağlamlığının etibarlı qorunması və koronavirus infeksiyasının yayılmasının qarşısının alınması məqsədilə həyata keçirilən kompleks tədbirlər çərçivəsində ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaq.

Yayılan iddia şayiə xarakterlidir və cəmiyyətdə süni ajiotaj yaratmaq məqsədi daşıyır. Hazırda aidiyyəti orqanlar tərəfindən bu tipli şayiə yayan şəxslərin aşkarlanması və onların barəsində hüquqi məsuliyyət tədbirləri görülməsi üçün müvafiq iş aparılır.

# Operativ Qərargah ölkə ərazisində koronavirusla əlaqədar tətbiq olunacaq bəzi sosial izolyasiya tədbirləri barədə məlumat yayıb

Koronavirus infeksiyası (COVID-19) dünya ölkələri arasında sürətlə yayılmaqda davam edir. Virusun uzun inkubasiya dövrünün olması, yayılma sürəti və vaksinin hələ də tapılmaması dövlətləri daha da ciddi tədbirlər görməyə sövq edir. Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq və virusun qarşısının alınması istiqamətində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə və tələblərindən irəli gələrək ölkə ərazisində bir sıra təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi zərurəti yaranıb. Bununla əlaqədar bir ay müddətində kütləvi tədbirlərin təxirə salınması qərara alınıb. Həmçinin dövlət və özəl sektora aid qurumlardan, vətəndaşlardan xüsusi qaydalara ciddi riayət etmələri tələb olunur.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah **14 mart 2020-ci il saat 00:00-dan** etibarən ölkə ərazisində tətbiq olunacaq bəzi sosial izolyasiya tədbirlərini diqqətə çatdırır:

- ölkə üzrə bütün kütləvi tədbirlər, o cümlədən mədəni-idman tədbirləri təxirə salınır, artıq təyin olunmuş tədbirlərin tarixi dəyişdirilir;
- ölkə üzrə kinoteatrların, muzey və teatrların, əyləncə mərkəzlərinin, idman zallarının fəaliyyəti dayandırılır;
- ölkə ərazisində bütün toy məclislərinin keçirilməsi qadağan edilir; (14 və 15 mart 2020-ci il tarixlərinə əvvəlcədən təyin olunan toy mərasimləri istisna olmaqla)
- dəfn mərasimləri istisna olmaqla, mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin keçirilməsi qadağan olunur;
- restoran və kafelərdə iş rejimi saat 21:00-dək müəyyən edilir və müvafiq dövlət strukturları tərəfindən bu məkanlar üçün açıqlanacaq qaydalara riayət olunması mütləqdir;
- restoran və kafelərdə kütləvi şənliklərin, məclislərin təşkili qadağan edilir;
- saat 21:00-dan sonra fəaliyyət göstərən klublar və barların fəaliyyəti dayandırılır;
- ölkə üzrə fəaliyyət göstərən alış-veriş mərkəzlərinin fəaliyyətinin müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara riayət olunaraq həyata keçirilməsi mütləqdir;
- aptek, ərzaq mağazaları, market və supermarketlərin iş rejimində dəyişiklik olmayacaqdır;
- ictimai nəqliyyatın fəaliyyəti müvafiq dövlət strukturları tərəfindən açıqlanacaq qaydalara uyğun həyata keçiriləcəkdir;
- tibb müəssisələrində müalicə alan şəxslərin xəstə yaxınları tərəfindən ziyarəti qadağan edilir;
- dövlət strukturlarında çalışan bütün şəxslərin və səhiyyə işçilərinin ölkədən kənara səfərləri Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın icazəsi əsasında həyata keçirilə bilər;
- dövlət və özəl sektorda çalışan şəxslərin ən vacib məqamlar istisna olmaqla ezamiyyə səfərlərinə məhdudiyyət tətbiq edilməlidir;
- özəl tibb müəssisələri Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi ilə (TƏBİB) koordinasiya şəraitində çalışmalı, yarana biləcək hər hansı hallar üçün yüksək hazırlıq səviyyəsi təmin edilməlidir;
- qeyd olunan müddətdə dövlət strukturlarının, özəl qurumların, bank və iaşə obyektlərinin və digər qurumların fəaliyyəti, vətəndaş müraciətlərinə baxılması, vətəndaşların qəbulu, daxili görüş və iclasların təşkili üçün xüsusi qaydalar işlənib hazırlanmalıdır;

Koronavirus diaqnozu ilə xüsusi rejimli xəstəxanalarda müalicə alan və karantin qaydalarını pozan şəxslər barəsində cəza tədbirləri tətbiq olunacaqdır.

Eyni zamanda, ictimaiyyətdə yanlış fikrin formalaşdırılması məqsədi güdən və qəsdən bu qəbildən olan informasiyaların yayılmasını həyata keçirən kütləvi informasiya vasitələri, o cümlədən sosial şəbəkə istifadəçiləri barəsində ən ciddi tədbirlər görüləcəkdir.

Vətəndaşlarımızdan və kütləvi informasiya vasitələrindən bütün dünyada yaranmış hazırkı vəziyyətdə maksimum məsuliyyətli olmaq və dövlət tərəfindən həyata keçirilən tədbirlərə hərtərəfli dəstək göstərmələri tələb olunur.

Belə ki, hazırda koronavirus zəminində yaranan fövqəladə şəraitdə yalnız dövlət tərəfindən keçirilən tədbirlər deyil, vətəndaşlarımızın, bütün cəmiyyətin sosial məsuliyyətdən irəli gələn addımları, görülən işlərə dəstəyi vacibdir.

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın bütün tövsiyə, təklif və qərarları qeyd-şərtsiz icra olunmalıdır.

# DST missiyası Azərbaycanın koronavirusa cavab tədbirlərini genişləndirmək üçün göstərdiyi səyləri yüksək qiymətləndirib

Dünya Səhiyyə Təşkilatı (DST) koronavirusu (COVID-19) pandemiya olaraq xarakterizə edib. Bu, bütün ölkələrə əhalisini və dünyanı qorumaq üçün fəaliyyətə keçməyə çağırışdır və qlobal həmrəyliyə nail olmaq çox vacibdir.




AZƏRTAC xəbər verir ki, bunu DST-nin koronavirus pandemiyasına qarşı Azərbaycan hökumətinə hazırlıq tədbirləri ilə bağlı dəstək göstərmək üçün ölkəmizə səfərə gəlmiş missiyanın yekunlarına dair mətbuat konfransında nümayəndə heyətinin rəhbəri Karolina Braun deyib. O, pandemiya ilə əlaqədar çətinliklər və onların həlli yolları üzərində Bakıda olduqları müddət ərzində intensiv iş apardıqlarını və bu işdə onlara göstərilən dəstəyə görə Azərbaycanın rəsmi qurumlarına minnətdarlığını bildirib. "Azərbaycanın koronavirusa cavab tədbirlərini genişləndirmək üçün göstərdiyi səyləri yüksək qiymətləndiririk",- deyə missiya rəhbəri bildirib.

Onun sözlərinə görə, martın 9-dan 13-dək davam edən 5 günlük səfər çərçivəsində ekspertlər Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) təmsilçiləri ilə respublika və regional səviyyəli xəstəxanalara, həmçinin Qida Təhlükəsizliyi Agentliyinin laboratoriyalarına, Azərbaycan Tibb Universitetinə və sərhəd keçid məntəqələrinə baş çəkib, ölkədə koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması üzrə profilaktik tədbirlərlə tanış olublar. DST-nin ekspert qrupu aşağıdakı sahələri inkişaf etdirmək üçün səhiyyə orqanları ilə əməkdaşlıq edib: nəzarət və laboratoriya müayinəsi; risk kommunikasiyası; infeksiyanın qarşısının alınması və nəzarət; xəstələrə qulluq; zəruri dərmanlarla əlçatımlılıq, eləcə də ictimai yerlərdə lazımi məsafənin qorunması tədbirləri daxil olmaqla səhiyyə sisteminə təsirin azaldılması.

Karolina Braun DST-nin koronavirusa görə ekspress testlərinin hazırlanması üçün işlər aparılmasını diqqətə çatdırıb: "Ola bilsin ki, bu bir müddət sonra mümkün olsun. Hazırkı şəraitdə isə DST-nin testləri ilə müayinələr xüsusi laborator şəraitində aparılır. Bu virus yeni olduğundan bir çox ölkələr ona qarşı test hazırlaya bilmirlər. Buna görə də ölkələr testləri Dünya Səhiyyə Təşkilatından alırlar".

Həmçinin Azərbaycan hökumətinin qonşu ölkələrlə əlaqəli şəkildə COVID-19 virusunun dünyada yayılması riskinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə DST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının verilməsi barədə qərar qəbul etdiyi və bu qərarın DST tərəfindən təqdir edildiyi bildirilib.

DST-nin ölkəmizdəki nümayəndəliyinin rəhbəri Hande Harmancı öz növbəsində bildirib ki, Azərbaycanda yaya qədər virusun yayılması göstəricisinin azalmasını indidən demək çətindir: "Yay aylarında virusun yayılması hallarının səngiməsi ilə bağlı demək istəyirəm ki, hazırda Çində yoluxma faizi azalır. Lakin orada yeni faktların aşkarlanmaması üçün qabaqlayıcı tədbirlər bu gün də davam etdirilir".

TƏBİB-in şöbə müdiri Yaqut Qarayeva bildirib ki, bugünə qədər Azərbaycanda 19 koronavirusa yoluxma faktı qeydə alınıb. Onun sözlərinə görə, xəstələrin 3-ü artıq sağalıb.

Qeyd edək ki, Azərbaycan Respublikası və Dünya Səhiyyə Təşkilatı (DST) arasında uzunmüddətli səmərəli əməkdaşlıq münasibətləri mövcuddur. Azərbaycan Respublikası DST-nin qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərini yüksək qiymətləndirir. DST-nin COVID-19 virusu ilə bağlı tövsiyələri Azərbaycan tərəfindən nəzərə alınır və tətbiq olunur.

## İdman qurğularının fəaliyyəti müvəqqəti dayandırılır

Koronavirus infeksiyasının insanlar arasında yayılmasının qarşısını almaq və əhalinin sağlamlığını qorumaq, vaxtında qabaqlayıcı tədbirlər görmək məqsədilə Gənclər və İdman Nazirliyinin tabeliyində olan olimpiya idman komplekslərinin, digər idman müəssisə və qurğularının fəaliyyəti müvəqqəti dayandırılır.

Gənclər və İdman Nazirliyinin saytından AZƏRTAC-a bildiriblər ki, bununla yanaşı, Bakıda keçirilməsi nəzərdə tutulan cüdo idman növü üzrə Böyük Dəbilqə turniri, karate idman növü üzrə böyüklər arasında Avropa çempionatı və "Formula-1" Azərbaycan Qran-Prisinin də təxirə salınması ilə bağlı müzakirələr aparılır.

Qeyd edək ki, respublika çempionatları və ölkə birinciliklərinin keçirilməsi də təxirə salınıb.

## Bakıda keçirilən idman gimnastikası üzrə dünya kuboku yarışlarının final mərhələləri ləğv olunub

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargahın qərarı rəhbər tutularaq, martın 14-də və 15-də Bakıda keçirilməsi planlaşdırılan idman gimnastikası üzrə dünya kuboku yarışlarının final mərhələləri ləğv olunub.

AZƏRTAC Azərbaycan Gimnastika Federasiyasının saytına istinadla xəbər verir ki, federasiya bu qərarı dünyada yayılmış koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi ilə bağlı qəbul edib.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 13 mart tarixli Sərəncamı ilə təsdiq edilmişdir

## Abşeron, Xızı, Siyəzən və Şabran rayonlarında 2020-ci ildə qazlaşdırılması nəzərdə tutulan ərazi vahidlərinin SİYAHISI

| Sıra №-si | Ərazi vahidləri |
|---|---|
| | **Abşeron rayonu** |
| 1. | Qobu qəsəbəsində yeni massiv |
| | **Xızı rayonu** |
| 1. | Qızılqazma kəndində yeni massiv |
| 2. | Yarımca kəndində yeni massiv |
| | **Siyəzən rayonu** |
| 1. | Qalaaltı kəndi |
| 2. | Məşrif kəndi |
| | **Şabran rayonu** |
| 1. | Ceyranlı kəndi |
| 2. | Əmirxanlı kəndi |
| 3. | Qazbabalı kəndi |
| 4. | Vələsli kəndi |

# Parlamentin yaz sessiyasının qanunvericilik işləri planı təsdiqləndi

*Əvvəli 1-ci səh.*





Komitə sədri son günlər dünyada koronavirus epidemiyasının yayılması və digər hadisələr ilə əlaqədar neftin qiymətinin 30-35 dollara enməsinə də aydınlıq gətirdi. Dedi ki, epidemiyanın iqtisadiyyata təsiri iyun ayında bitəcək: "Bu gün Azərbaycan iqtisadiyyatının sabit qalması üçün kifayət qədər imkanlar var. Mən insanları təşvişə düşməməyə çağırıram".

Tahir Mirkişili onu da vurğuladı ki, Azərbaycan hökumətinin apardığı tədbirlər nəticəsində iqtisadiyyatın dayanıqlılığı artıb: "İqtisadiyyatın xarici şoklardan qorunması üçün immunitet yaranıb. Neftin qiymətinin 30-35 dollar olması büdcə gəlirlərini 270-340 milyon dollar azalda bilər ki, bu da büdcənin gəlirlərində çox cüzi faizdir. Son iki ayda büdcəyə proqnozlaşdırılandan 250 milyon manat artıq vəsait daxil olub. Bu da göstərir ki, neftin qiymətinin düşməsi büdcə gəlirlərinə ciddi təsir göstərməyəcək".

### "Bəzi qüvvələr şayiələr yaymaqla ajiotaj yaratmağa çalışırlar"

Milli Məclisin Reqional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qeyd etdi ki, son günlər ölkədə bəzi qüvvələr şayiələr yaymaqla ajiotaj yaratmağa çalışırlar. Bəzi mətbuat orqanları, xüsusilə də xaricdəki "sapı özümüzdən olan baltalar" bu ajiotajı qızışdırırlar: "Neftin qiyməti düşübsə, bizim hər bir vətəndaşımız əziyyət çəkir. Əgər sən vətəndaşı düşünürsənsə, niyə sevinirsən?! Qurulan, yaradılan bütün məktəblər, bağçalar, məcburi köçkünlər üçün tikilən evlər xalq üçün edilir. Deməli, onlar vətəndaşların yaxşı yaşamasının əleyhinə olan adamlardır. İnsanların zəlzələdən evi uçanda dövlət vətəndaşa ev tikir, evi yanan vətəndaşa dövlət ev verir. Başqa ölkələrdə belə addım atılmır. Burada da hansı problem olsa, dövlət, dövlət başçısı bunu həll edəcək. 5-3 adamın verdiyi şərhlərə insanlarımız uymasın. Dövlət və dövlət başçısı insanlarımızın problemlərini həll etməyə qadirdir".

Komitə sədrinin sözlərinə görə, həmin qüvvələr cəmiyyəti başqa istiqamətə yönəltməyə çalışırlar. Ona görə də insanlar narahat olmamalıdır, çünki dövlət tərəfindən lazımi tədbirlər görüləcək. Hər zaman ən təhlükəli məqamlarda dövlət öz xalqının yanında olub.

Deputat Vahid Əhmədov isə təkliflə çıxış etdi. Onun fikrincə, "Əmanətlərin tam sığortalanmasının 9 ay müddətinə uzadılması yetərli deyil: "Hökumət, ümumiyyətlə, əmanətləri ortamüddətli dövr üçün tam sığortalamalıdır. Məsələn, 3 il müddətində. Neftin bazar qiymətinin düşməsi ilə bağlı bəzi söz-söhbətlər gəzir. Təklif edirəm ki, Mərkəzi Bank əhaliyə daha geniş məlumat versin. Maliyyə Sabitliyi Şurası əhaliyə çatdırmalıdır ki, yaxın müddətdə Azərbaycanda heç bir narahatlıq olmayacaq".

### Əmanətlərin tam sığortalanması dünyada bir Azərbaycan təcrübəsidir

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev də əmanətlərin sığortalanması məsələsini çox aktual məsələ adlandırdı və qeyd etdi ki, layihə Azərbaycan dövlətinin daim xalqın yanında olduğunu bir daha təsdiq edir:

"Əmanətlərin tam sığortalanması dünyada bir Azərbaycan təcrübəsidir. Dövlət Neft Fondundan 2020-ci ilin büdcəsinə 11 milyard 350 milyon manat transfert olunması nəzərdə tutulub. Hətta Dövlət Neft Fondu 7 il müddətində heç bir gəlir əldə etməsə belə dövlət büdcəsinə transfertləri köçürmək imkanına malikdir. Bu baxımdan pessimist olmağa ehtiyac yoxdur. Təkcə iki ay ərzində nəzərdə tutulan proqnozdan artıq gömrük vergi orqanlarından büdcəyə vəsait daxil olub. Vətəndaşlarımız bilsin ki, neftin qiymətinin düşməsi qısamüddətlidir və bunu qarşılamağa hökumətin hər cür imkanı var".

Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli də bu sənədi əhalinin əmanətlərinin qorunması baxımından çox vacib bir sənəd adlandırdı.

Deputat İlham Məmmədov isə bildirdi ki, bu qanun layihəsinə edilən düzəliş Prezident İlham Əliyevin sosial siyasətinin tərkib hissəsidir.

Çıxışlardan sonra sənəd səsverməyə çıxarılaraq qəbul edildi.

### Təklif var: parlamentdə iş rejimi dəyişsin

Sonra islasda Azərbaycan Respublikası Milli Məclisinin 2020-ci il yaz sessiyasının qanunvericilik işləri planı haqqında sənəd müzakirəyə çıxarıldı. Deputatlar müxtəlif maraqlı təkliflərlə çıxış etdilər.

"Əminəm ki, parlamentdə müzakirələr açıq olacaq və hər kəsə bərabər şərait yaradılacaq". Bu fikri Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc söylədi. Qeyd etdi ki, parlamentin komitələrində, yüksək vəzifələrdə siyasi partiyaların nümayəndələri təmsil olunur: "Prezident İlham Əliyev Milli Məclisdəki çıxışında dedi ki, kəmiyyətə yox, keyfiyyətə önəm verilməlidir. Bəzən biz 39 məsələni 1 saata bitirirdik. Prezident də dediyi kimi, biz kəmiyyətə deyil, keyfiyyətə üstünlük verməliyik". Deputat həmçinin siyasi partiyalarla bağlı qanunvericiliyin dəyişməli olduğunu bildirdi.

Parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev təklif etdi ki, "Azərbaycan Respublikasının işğal edilmiş əraziləri haqqında" qanun layihəsinin qəbul edilməsinə ehtiyac var. Onun sözlərinə görə, əraziləri işğal edilən bir çox dövlətlər belə bir qanun qəbul edib: "Hesab edirəm ki, Azərbaycanda bu qanunun qəbul edilməsinə zərurət var".

Deputat Elman Məmmədov bu təklifi dəstəklədi: "İşğal olunmuş torpaqlar haqqında qanunun yaz sessiyasının qanunvericilik işləri planına daxil edilməsinə ehtiyac var". Elman Məmmədov dedi ki, parlamentdə Qarabağ Komitəsi yaradılmalıdır: "Xalqımız dəfələrlə soyqırımına məruz qalsa da, biz hələ "Soyqırımı haqqında" qanun qəbul etməmişik. Bir həqiqət var ki, məcburi köçkünə müavinət onun məcburi köçkün statusuna görə verilir. Ancaq Nazirlər Kabinetinin bununla bağlı müvafiq qərarında kifayət qədər ziddiyyətlər var. Bu ziddiyyətlər aradan qaldırılmalıdır". Deputat hesab edir ki, Qarabağ münaqişəsinin həlli ilə bağlı parlamentdə ya qapalı, ya açıq müzakirələr keçirilməli və bu məsələ Milli Məclisin qanunvericilik işləri planına daxil edilməlidir.

Elman Məmmədov həmçinin parlamentdə iş rejiminin dəyişməsini də təklif etdi: "Ya iclas saat 11-də başlayıb, 13:00-da bitsin, ya da 10:00-da başlayıb, 12:00-da tamamlansın. Müəyyən edilən iş saatı ona görə belə olub ki, həmin dövrdə deputatların hamısı vəzifəli şəxslər idi. İndi bu vaxtı dəyişə bilərik".

Parlamentin Əmək və sosial siyasət komitəsinin sədr müavini Məlahət İbrahimqızı isə hesab edir ki, Seçki Məcəlləsinə yenidən baxılmalıdır: "9 fevral seçkilərində bir sıra namizədlər bütün qanunları pozaraq, hər yerdə videoçəkilişlər etmək istəyirdilər. Seçki günü namizədin heç bir hüquqi olmur. Amma ötən seçkilərdə monoloq söyləyən, seçki qutusunun üstündə oturan namizədlər gördük".

Məlahət İbrahimqızı qeyd etdi ki, onlara seçicilərlə ayda 2 dəfə görüşlər keçirilməsi tövsiyə edilib: "Təklif edirəm ki, seçicilərlə görüşlərimiz Milli Məclisin iclasları və komitələrdə keçirilən iclaslarla üst-üstə düşməsin. Deputatlar həm seçicilərlə görüşdə, həm də Milli Məclisin və komitələrin iclaslarında iştirak edə bilsinlər".

Parlamentin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva isə təhsil kreditləri məsələsinə toxunaraq dedi ki, bu məsələ çox vacibdir: "Biz müvafiq dövlət qurumu ilə müzakirələr apararaq bu layihənin gündəmə gəlməsinə çalışmalıyıq".

Çıxışlardan sonra Milli Məclisin 2020-ci il yaz sessiyasının qanunvericilik işləri planı təsdiqləndi. Sonra iclasda Milli Məclisin 15 komitəsinin tərkibi müəyyənləşdi.

Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov qeyd etdi ki, Milli Məclis Aparatında həm daxil olan qanun layihələrinin öyrənilməsi, həm də dil baxımından şöbələr yaradılmalıdır.

Sənədlər ayrı-ayrılıqda səsverməyə çıxarılaraq təsdiqləndi və bununla da Milli Məclisin plenar iclası başa çatdı.

***Rəşad BAXŞƏLİYEV,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***

---

## Azərbaycan Respublikası Milli Məclisinin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvləri seçilsinlər:

Abbas Aqil Məhəmməd oğlu,
Ağazadə Əminə Həmid qızı,
Cəfərov Kamal Xaqani oğlu,
Elşad Mirbəşir oğlu,
Əsədov Oqtay Sabir oğlu,
Həsənov Nurlan Urfan oğlu,
Qədirli Erkin Toğrul oğlu,
Məmmədov Elman Camal oğlu,
Mirzəzadə Aydın Böyükkişi oğlu,
Nağıyev Arzu Nəsib oğlu,
Sadıqov Bəxtiyar Yusif oğlu,
Səfərov Nizami Abdulla oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin Hüquq siyasəti və dövlət quruculuğu komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvləri seçilsinlər:

Ağamalı Fəzail Rəhim oğlu,
Ağazadə Əminə Həmid qızı,
Cəfərov Kamal Xaqani oğlu,
Hacıyev Sabir Kamal oğlu,
Həsənov Nurlan Urfan oğlu,
İskəndərov Vüqar Yapon oğlu,
Kərimli Tahir Zayıdağa oğlu,
Qədirli Erkin Toğrul oğlu,
Quliyev Azay Əjdər oğlu,
Quliyev Cəbi Hüseyn oğlu,
Məhərrəmov Bəhruz Abdurrəhman oğlu,
Musayev Elşən Məmmədhənifə oğlu,
Musayev Madər Əliəsgər oğlu,
Səfərov Nizami Abdulla oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin İnsan hüquqları komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin İnsan hüquqları komitəsinin üzvləri seçilsinlər:

Elşad Mirbəşir oğlu,
Əhmədova Jalə Fərhad qızı,
Gəncəliyev Tural Babaşah oğlu,
Həmzəyev Naqif Ələşrəf oğlu,
Məhərrəmov Bəhruz Abdurrəhman oğlu,
Məmmədov Hikmət Baba oğlu,
Mustafa Fazil Qəzənfər oğlu,
Nəsirov Elman Xudam oğlu,
Nurullayev Razi Qulaməli oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin Əmək və sosial siyasət komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Əmək və sosial siyasət komitəsinin üzvləri seçilsinlər:

Bayramov Vüqar İbad oğlu,
Ələkbərov Əziz Yusif oğlu,
Əliyev Rauf Asif oğlu,
Əliyeva Jalə Fazil qızı,
Hüseynova Sevinc Əmirəhməd qızı,
Məmmədov Aqil Sadiq oğlu,
Məmmədov İlham Kazım oğlu,
Məmmədov Soltan Teymur oğlu,
Möhbalıyev Səttar Suliddin oğlu,
Nağıyev Arzu Nəsib oğlu,
Səmədzadə Ziyad Əliabbas oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvləri seçilsinlər:

Həmzəyev Naqif Ələşrəf oğlu,
Həsənova Afət Əbil qızı,
Məhəməliyev Nəsib Məhəmməd oğlu,
Məmmədov Anar İlyaz oğlu,
Məmmədov Məşhur Şahbaz oğlu,
Salahzadə Əliabbas Qalib oğlu,
Yıldırım Fatma Vidadi qızı,
Yusifov İltizam Balayusif oğlu,
Zabelin Mixail Yuryeviç.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin Aqrar siyasət komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Aqrar siyasət komitəsinin üzvləri seçilsinlər:

Aslanov Novruzəli Davud oğlu,
Badamov Azər Camal oğlu,
Cəfərov Müşfiq Cəfər oğlu,
Hacıyev Emin Məcid oğlu,
Hüseynov Aydın Nəsir oğlu,
İbrahimov Eldar Rza oğlu,
Məmmədov İqbal Nəriman oğlu,
Paşazadə Cavanşir Hümmət oğlu,
Səlimov Eldəniz Adil oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvləri seçilsinlər:

Abbaszadə Mahir Tapdıq oğlu,
Allahverdiyev Elnur Marat oğlu,
Bayramov Vüqar İbad oğlu,
Əfəndiyev Məzahir Cavid oğlu,
Əhmədov Vahid Qazməmməd oğlu,
Hüseynov Aydın Nəsir oğlu,
İsmayılov İmamverdi İbiş oğlu,
Quliyev Rüfət Atakişi oğlu,
Məmmədov Anar İlyaz oğlu,
Məmmədov İqbal Nəriman oğlu,
Məmmədov Məşhur Şahbaz oğlu,
Səmədzadə Ziyad Əliabbas oğlu,
Vəliyev Ağalar İsrəfil oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin Səhiyyə komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Səhiyyə komitəsinin üzvləri seçilsinlər:

Əliyeva Kamilə Əliağa qızı,
İbrahimqızı Məlahət İbrahim qızı,
Qafarov Kamaləddin Nəsrəddin oğlu,
Quliyev Ülvi Zahid oğlu,
Məmmədli Müşfiq Fazil oğlu,
Məmmədov İlham Kazım oğlu,
Məmmədov Soltan Teymur oğlu,
Rafailov Anatoliy Xaimoviç,
Vəliyeva Sədaqət Süleyman qızı.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

---

## Azərbaycan Respublikası Milli Məclisinin Ailə, qadın və uşaq məsələləri komitəsi üzvlərinin seçilməsi haqqında

### Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin üzvləri seçilsinlər:

Arpadarai Nigar Cavid qızı,
Cəfərova Tamam Şaməmməd qızı,
Əliyev Rauf Asif oğlu,
Kərimzadə Pərvin Orxan qızı,
Mahmudov Rəşad Məmmədqulu oğlu,
Məmmədov Ramin Ələmşah oğlu,
Mikayılova Sevil Əlirazı qızı,
Nurullayeva Könül Oruc qızı,
Vəliyeva Sədaqət Süleyman qızı.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Strateji tərəfdaşlıq nümunəsi

## Türkmənistan Prezidentinin Azərbaycana rəsmi səfəri dostluq və qardaşlıq əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcək

*Əvvəli 1-ci səh.*



Türkmənistan isə milli ortaqlıqdan başqa, həm də Azərbaycanla eyni coğrafiyanı bölüşən dövlətdir. Bu baxımdan Bakı Xəzərin o tayında yerləşən Türkmənistanla əlaqələrə mühüm önəm verir.

Xatırladaq ki, Azərbaycanla Türkmənistan arasında diplomatik münasibətlərin əsası 1992-ci ilin iyunundan qoyulmasına baxmayaraq, həm bir-birinə coğrafi baxımdan yaxın olan, həm də zəngin karbohidrogen ehtyatlarına malik bu iki türk dövləti arasında siyasi əlaqələr uzun müddət inkişaf etməmişdi. Bu gün isə bu əlaqələr artıq strateji səciyyə daşıyır. Hələ 2017-ci il avqustun 8-də Bakıda Azərbaycanla Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanıb. Bu sənəddə iki dövlətin gələcək birgə fəaliyyətinin demək olar ki, bütün istiqamətləri müəyyən edilib. Belə ki, burada siyasi, iqtisadi, humanitar, mədəniyyət, nəqliyyat, energetika, təhlükəsizlik məsələləri öz əksini tapıb. O cümlədən Bəyannamədə hər iki tərəf bir-birinin ərazi bütövlüyünə, suverenliyinə, sərhədlərin toxunulmazlığına qətiyyətli dəstək nümayiş etdirib.

Prezident İlham Əliyevin 2018-ci ilin noyabrında Türkmənistana etdiyi rəsmi səfər əlaqələrin məhz strateji tərəfdaşlıq prinsipləri əsasında inkişafının təsdiqi oldu. Həmin səfər zamanı dövlətlərarası əlaqələrin bütün tərəfləri müzakirə edildi. Danışıqların yekunu olaraq 21 sənədin imzalanması əməkdaşlığın yaxın gələcəkdə strateji tərəfdaşlıq ruhunda yeni mərhələyə yüksələcəyindən xəbər verdi.

### Geniş gündəliyə dair fəal dialoq davam edir

Bu gün iki dövlət arasında bir çox sahələri əhatə edən əməkdaşlıq formatı mövcuddur. Qurbanqulu Berdiməhəmmədovun rəsmi səfəri isə İlham Əliyevin qeyd etdiyi kimi, siyasi, iqtisadi, nəqliyyat, humanitar əməkdaşlıq sahələrini əhatə edən çox geniş gündəliyə dair fəal dialoqun davamıdır. Bu səfər təsdiqlədi ki, iki ölkənin münasibətləri yeni mərhələdə dinamik inkişaf edir. Xüsusən iqtisadi-ticari əməkdaşlıq genişlənir, əmtəə dövriyyəsi artır.

Səfər zamanı prezidentlər arasında istər təkbətək, istər geniştərkibli görüşdə olduqca konstruktiv və səmərəli danışıqlar aparıldı. Dövlət başçıları ikitərəfli əlaqələrin, ayrı-ayrı sahələr üzrə əməkdaşlığın bütün aspektlərini, yəni, onların cari və perspektiv vəziyyətini nəzərdən keçirdilər, enerji, kənd təsərrüfatı, elm-təhsil, turizm, mədəniyyət, idman və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi apardılar. Görünən odur ki, həm Azərbaycan, həm də Türkmənistan ikitərəfli münasibətlərin daha da inkişafında maraqlıdır.

Bütövlükdə, prezidentlərin görüşündə müzakirə olunan məsələlər hər iki tərəfin əməkdaşlığın strateji inkişafına sadiq qaldığını təsdiq etdi. İmzalanan 18 sənəd isə iki qonşu dövlət arasındakı mövcud hüquqi bazanı daha da möhkəmləndirdi. Bu sayda sənədin imzalanması ikitərəfli münasibətlərin və əməkdaşlıq həcminin göstəricisi olmaqla yanaşı, həm də qardaşlıq münasibətinin təzahürüdür.

### Regional əməkdaşlıq formatı

Azərbaycan və Türkmənistan son illərdə öz ərazilərində müasir nəqliyyat infrastrukturunun yaradılmasına və logistika imkanlarının artırılmasına böyük sərmayələr yatırıblar. Həm Azərbaycanda, həm Türkmənistanda yeni beynəlxalq ticarət limanları yaradılıb. Hazırda bu limanlar əlaqələndirilmiş, uzlaşdırılmış şəkildə işləyir. Azərbaycanın təşəbbüsü ilə çəkilən Bakı-Tbilisi-Qars dəmir yolu bir neçə ildir istifadəyə verilib və bununla da "Şərq-Qərb nəqliyyat dəhlizi"nin Azərbaycanın və Türkmənistanın yerləşdiyi coğrafiyadan keçən imkanları daha da yüksəlib. Təbii ki, bütün bunlar iki ölkə üçün əmtəə dövriyyəsini və tranzit daşımalarını artırmağa yol açır.

Təsadüfi deyil ki, prezidentlərin danışıqlarında əsas diqqət yetirilən məsələlərdən biri də nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi oldu. Buraya yaradılmış müasir nəqliyyat infrastrukturunun potensialından hər iki dövlətin iqtisadi maraqları naminə səmərəli istifadə, infrastruktur imkanlarının təmin edilməsi və yük axınının artırılmasına şərait yaradılması üçün əlavə tədbirlərin görülməsi kimi məsələlər daxildir. Ona görə müvafiq dövlət strukturlarına bu istiqamətdə işin intensivləşdirilməsinə, hər iki ölkənin tranzit-nəqliyyat potensialının möhkəmləndirilməsinə dair səylərin əlaqələndirilməsi barədə tapşırıqlar verildi.

Prezident İlham Əliyev mətbuata bəyanatında Qurbanqulu Berdiməhəmmədovla görüşün məhsuldar olduğunu bildirib: *"Görüşümüzün gündəliyi yetərincə məhsuldar olub. Ümumiyyətlə, biz çox fəal dialoq aparırıq. Keçən il prezidentlər həm Bakıda, həm də Aşqabadda görüşüblər. İnişil, qeyd etdiyim kimi, mənim rəsmi səfərim çox uğurlu olub. Mən qonaqpərvərliyə görə qardaş türkmən xalqına və Türkmənistan Prezidentinə bir daha təşəkkürümü bildirmək istəyirəm. Əminəm ki, Türkmənistan Prezidentinin budəfəki rəsmi səfəri əlaqələrimizin möhkəmlənməsi işində daha bir mühüm addım olacaq".*

Türkmənistan Prezidentinin ölkəmizə rəsmi səfəri iki dövlət arasında mahiyyətində strateji tərəfdaşlıq dayanan dostluq və qonşuluq münasibətlərinin daha da möhkəmləndirilməsi üçün böyük əhəmiyyət kəsb edir. Eyni zamanda bu gün iki ölkənin əlaqələrinin səviyyəsi regional əməkdaşlığın gözəl nümunəsini yaradır. Beləliklə, Bakıda irəli sürülən təşəbbüslər, əldə olunan razılaşmalar regional tərəfdaşlığın daha da dərinləşməsinə xidmət edəcək, yaxşı nəticələr verəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanda çoxpartiyalı Milli Məclis formalaşdı

## Yenilənmiş parlament Prezident İlham Əliyevin genişmiqyaslı və çoxşaxəli islahatlarının daha da dərinləşməsinə müsbət töhfə verəcək

*Əvvəli 1-ci səh.*

### Milli Məclis islahatlara yeni təkan verəcək

Son 3 ildə Prezident İlham Əliyev tərəfindən Nazirlər Kabineti, Prezident Administrasiyası, mərkəzi və yerli icra hakimiyyəti orqanları, məhkəmə-hüquq sistemində aparılan struktur və kadr islahatları ölkənin ictimai-siyasi, iqtisadi inkişafına yeni təkan verib. Dövlət başçısının söylədiyi kimi, mütərəqqi islahatların dərinləşməsi parlamentdən də yan keçə bilməzdi. Əlbəttə ki, yeni tərkibdə formalaşmış Milli Məclis bu islahatlara yeni təkan verəcək.

Prezident deputatlar qarşısında duran vəzifələrdən söz açdı və onlara tapşırıqlarını verdi:

- *qanunvericilik bazası daha da möhkəmləndirilməli;*
- *kəmiyyətə deyil, daha çox keyfiyyətə fikir verilməli;*
- *mövcud qanunların təkmilləşdirilməsinə baxılmalı, onları yenidən təftiş etməli;*
- *milli dəyərlərin qorunması ilə bağlı qanunvericilik bazası daha da geniş olmalı;*
- *qəbul edilən qanunların icrasına nəzarət etməli;*
- *informasiya təhlükəsizliyi ilə əlaqədar qanunvericilikdə yeni yanaşmalar olmalı;*
- *iqtisadi islahatların dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir.*

Cənab İlham Əliyev deputatların seçicilər qarşısındakı öhdəliklərinə də nəzər yetirərək bildirdi ki, onlar daim seçicilərlə təmasda olmalı və insanların problemlərinin həlli istiqamətində ciddi çalışmalıdırlar. Bu da deputatlar qarşısında qoyulmuş çox böyük məsuliyyətdir: "Xüsusən, indiki dönəmdə, iqtisadiyyatın prioritet olduğu bir zamanda parlamentin hər üzvünün, komitələrin fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. Komitələrə peşəkar şəxslərin rəhbərlik etməsi göstərir ki, yaxın günlərdə ciddi qanunvericilik prosesinin şahidi olacağıq".

Ölkə lideri bəyan etdi ki, parlamentdə qanunlar qəbul olunarkən iqtisadi inkişafın dərinləşdirilməsi, milli dəyərlərin qorunması, informasiya təhlükəsizliyi, sosial siyasət və gənclər siyasəti nəzərə alınmalıdır. Milli Məclis üzvlərinin beynəlxalq qurumlarda Azərbaycan həqiqətlərinin daha geniş şəkildə təbliğ etmələrinin vacibliyindən danışan Prezident Dağlıq Qarabağ məsələsində ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısının alınması üçün fəallığı artırmağın zəruriliyini vurğuladı. Son 16 ildə Azərbaycanın bütün sahələrdəki davamlı inkişafına toxunan Prezident vurğuladı ki, iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur.

Beləliklə, VI çağırış Milli Məclis öz işinə başladı. Dövlət başçısının fikirlərindən aydın oldu ki, parlament Azərbaycanın dayanıqlı inkişafının təmin edilməsinə yönələn strateji xəttin uğurla həyata keçirilməsinə öz töhfəsini verəcək, ölkənin sosial-iqtisadi inkişaf strategiyasını dəstəkləməkdə davam edəcək.

Bir sözlə, Prezidentin parlamentin ilk iclasındakı geniş nitqi, tapşırıq və tövsiyələri Milli Məclisin yeni formalaşmış təmsilçiləri üçün bir yol xəritəsi oldu.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Cenevrədə Azərbaycan Respublikası və Dünya Səhiyyə Təşkilatı arasında Donor Sazişi imzalanıb

Martın 13-də Dünya Səhiyyə Təşkilatının Cenevrədəki baş qərargahında "Azərbaycan Respublikası və Dünya Səhiyyə Təşkilatı (DST) arasında Donor Sazişi" imzalanıb.

AZƏRTAC xəbər verir ki, sözügedən donor sazişi dünyada koronavirus epidemiyasının yayılması riskinin qarşısının alınması istiqamətində beynəlxalq birliyin səylərinə töhfə məqsədilə Azərbaycan Respublikası hökumətinin DST-yə könüllü maliyyə yardımının ayrılması barədə 2020-ci il 6 mart tarixli qərarına əsasən imzalanıb.

Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Vaqif Sadıqov və DST-nin baş direktoru Tedros Adhanom Qebreyesusu tərəfindən imzalanmış donor sazişi Azərbaycan Respublikası hökuməti tərəfindən DST-nin "Strateji Hazırlıq və Cavab Planı" çərçivəsində "COVID-19 müraciəti" Fonduna 5 milyon ABŞ dolları məbləğində könüllü maliyyə yardımının ayrılmasını nəzərdə tutur.

Sənədin imzalanma mərasimi zamanı DST-nin baş direktoru Azərbaycan hökuməti tərəfindən verilmiş bu qərarın çox təqdirəlayiq olduğunu vurğulayaraq, ölkəmiz tərəfindən səhiyyə sektoruna, xüsusilə hazırda COVID-19 virusu ilə mübarizəyə yönəlmiş diqqət və qayğının, həyata keçirilən bütün lazımi ehtiyat tədbirlərinin DST tərəfindən diqqətlə izlənildiyini və yüksək qiymətləndirildiyini bildirib. DST-nin baş direktoru Azərbaycan tərəfindən COVID-19 virusu ilə mübarizə üçün ayrılmış könüllü maliyyə töhfəsinin qlobal həmrəyliyin nümunəvi nümayişi olduğunu diqqətə çatdıraraq, DST adından Azərbaycan hökumətinə verilmiş bu qərara görə dərin minnətdarlığını ifadə edib. DST-nin baş direktoru qeyd edib ki, 2018-ci ilin iyul ayında rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən qəbul edilməsi və keçirilmiş bir sıra digər görüşlər ölkəmizin DST ilə əməkdaşlığının yüksək səviyyədə olmasının təzahürüdür.

Cavab olaraq, daimi nümayəndə V.Sadıqov Azərbaycan tərəfindən DST ilə əməkdaşlığa yüksək önəm verildiyini vurğulayaraq, Azərbaycan hökumətinin müraciəti əsasında DST ekspert qrupunun ölkəmizə hazırda davam edən səfərinə görə minnətdarlığını ifadə edib.

Görüş əsnasında V.Sadıqov Azərbaycanda səhiyyə sahəsində və COVID-19 virusu ilə mübarizədə görülən işlər və həyata keçirilən tədbirlər barədə qarşı tərəfi məlumatlandırıb. Daimi nümayəndə Azərbaycan Respublikası tərəfindən DST-nin qlobal miqyasda COVID-19 virusuna qarşı mübarizə səylərinin yüksək qiymətləndirildiyini bildirərək, COVID-19 virusu ilə bağlı DST-nin tövsiyələrinin Azərbaycan tərəfindən nəzərə alındığını və tətbiq edildiyini nəzərə çatdırıb.

Dünya Səhiyyə Təşkilatı Azərbaycan Respublikasının səhiyyə sahəsində əməkdaşlıq etdiyi əsas beynəlxalq qurumdur. Azərbaycan Respublikasının DST ilə əməkdaşlığı təşkilatın baş qərargahı və Kopenhagen şəhərindəki DST-nin Avropa üzrə Regional Ofisi vasitəsilə həyata keçirilir. Eyni zamanda, DST-nin ölkəmizdə ofisi mövcuddur.

# Azərbaycan Respublikası Milli Məclisinin İctimai birliklər və dini qurumlar komitəsi üzvlərinin seçilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin üzvləri seçilsinlər:

Badamov Azər Camal oğlu,
Fətəliyeva Sevinc Həbib qızı,
Həsənov Malik Əvəz oğlu,
İsgəndərov Anar Camal oğlu,
Məmmədov Ceyhun Valeh oğlu,
Paşazadə Cavanşir Hümmət oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsi üzvlərinin seçilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Mədəniyyət komitəsinin üzvləri seçilsinlər:

Abbas Aqil Məhəmməd oğlu,
Ağayeva Ülviyyə Cavanşir qızı,
Aslanov Novruzəli Davud oğlu,
Cəfərov Nizami Qulu oğlu,
Ələkbərov Əziz Yusif oğlu,
Feyziyev Cavanşir Əyyub oğlu,
Həmzəyeva Ülviyyə Tapdıq qızı,
Rüstəmxanlı Sabir Xudu oğlu,
Zabelin Mixail Yuryeviç.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Azərbaycan Respublikası Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin seçilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri seçilsinlər:

Alıyev Sahib Eyvaz oğlu,
Arpadarai Nigar Cavid qızı,
Bayramov Kamran Fərhad oğlu,
Feyziyev Cavanşir Əyyub oğlu,
Gəncəliyev Tural Babaşah oğlu,
Həsən Ramil Sahib oğlu,
Kərimli Azər Şəmşid oğlu,
Məhəməliyev Nəsib Məhəmməd oğlu,
Məmmədov Ramin Ələmşah oğlu,
Mikayılova Sevil Əlirazı qızı,
Mollazadə Asim Nazim oğlu,
Musabəyov Rasim Nəsrəddin oğlu,
Nəsirov Elman Xudam oğlu,
Rüstəmxanlı Sabir Xudu oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Azərbaycan Respublikası Milli Məclisinin Regional məsələlər komitəsi üzvlərinin seçilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Regional məsələlər komitəsinin üzvləri seçilsinlər:

Bayramov Kamran Fərhad oğlu,
Cəfərov Nizami Qulu oğlu,
Əfəndiyev Məzahir Cavid oğlu,
Hacıyev Emin Məcid oğlu,
Heydərov Fəttah Səməd oğlu,
Həsənov Malik Əvəz oğlu,
Xasayeva Səbinə Səməd qızı,
Məmmədov Aqil Sadiq oğlu,
Möhbalıyev Səttar Suliddin oğlu,
Osmanov Cavid Həmid oğlu,
Rzayev Tahir Musa oğlu,
Salahzadə Əliabbas Qalib oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Azərbaycan Respublikası Milli Məclisinin Gənclər və idman komitəsi üzvlərinin seçilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Gənclər və idman komitəsinin üzvləri seçilsinlər:

Abbaszadə Mahir Tapdıq oğlu,
Allahverdiyev Elnur Marat oğlu,
Cəfərov Müşfiq Cəfər oğlu,
Əhmədova Jalə Fərhad qızı,
Əliyev Etibar Qasım oğlu,
Həsən Ramil Sahib oğlu,
Hüseynova Sevinc Əmirəhməd qızı,
İskəndərov Vüqar Yapon oğlu,
Quliyev Cəbi Hüseyn oğlu,
Quliyev Ülvi Zahid oğlu,
Nurullayeva Könül Oruc qızı,
Osmanov Cavid Həmid oğlu,
Seyidzadə Şahin Kamil oğlu,
Səlimov Eldəniz Adil oğlu.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Azərbaycan Respublikası Milli Məclisinin Elm və təhsil komitəsi üzvlərinin seçilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin Qərarı

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

Azərbaycan Respublikası Milli Məclisinin aşağıdakı deputatları Milli Məclisin Elm və təhsil komitəsinin üzvləri seçilsinlər:

Ağayeva Ülviyyə Cavanşir qızı,
Cəfərova Tamam Şaməmməd qızı,
Əliyev Etibar Qasım oğlu,
Əliyeva Kamilə Əliağa qızı,
Həbibbəyli İsa Əkbər oğlu,
Həsənova Afət Əbil qızı,
Hüseynov Rafael Baba oğlu,
İsgəndərov Anar Camal oğlu,
Kərimzadə Pərvin Orxan qızı,
Quliyev Eldar Allahyar oğlu,
Məmmədli Müşfiq Fazil oğlu,
Məmmədov Ceyhun Valeh oğlu,
Naxçıvanlı Aqiyə Həbib qızı,
Seyidzadə Şahin Kamil oğlu,
Yıldırım Fatma Vidadi qızı.

***Sahibə QAFAROVA,***
***Azərbaycan Respublikası***
***Milli Məclisinin Sədri***

*Bakı şəhəri, 13 mart 2020-ci il*

# Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin bölgələrdə vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq, Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev martın 13-də Xaçmazda vətəndaşları qəbul edib.

Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Xaçmaz, Quba və Şabran rayonlarından olan vətəndaşların ətraf mühitin və ekoloji tarazlığın mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, hidrometeorologiya, ətraf mühitin monitorinqi və digər məsələlərlə bağlı müraciət və təklifləri dinlənilib. Müraciətlərin bir çoxu yerindəcə həllini tapıb. Bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər aidiyyəti qurumlara çatdırılması üçün qeydiyyata alınıb və nəzarətə götürülüb.

Həmin gün nazir müavinləri Firdovsi Əliyev Qusarda, Rauf Hacıyev isə Xızıda vətəndaşların müraciətlərini dinləyib.

* * *

Gənclər və İdman naziri Azad Rəhimov martın 13-də Şirvan şəhər və Hacıqabul rayonundan olan vətəndaşları qəbul edib.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Şirvan şəhərində keçirilən qəbulda 10-dan çox vətəndaş iştirak edib. Vətəndaşların müraciətləri "Gənclər evi"nin tikintisi, idman obyektlərinə avadanlıqların verilməsi, işlə təmin olunma, fəxri adların və məşqçilik dərəcələrinin verilməsi, müxtəlif idman qurğularının tikintisi ilə bağlı olub.

Müraciətlərin bir qismi yerindəcə həll edilib, nazirliyin səlahiyyətlərinə aid olmayan müraciətlər qeydə alınaraq aidiyyəti üzrə göndəriləcəyi bildirilib. Bəzi müraciətlər isə baxılması üçün icraya yönəldilib.

* * *

Martın 13-də Ali Məhkəmənin sədri Ramiz Rzayev Şəmkir Rayon Məhkəməsinin inzibati binasında vətəndaşları qəbul edib.

Qəbulda hər bir vətəndaş diqqətlə dinlənilib, müraciətlərdə qaldırılan məsələlərin bir qismi yerində müsbət həllini tapıb, digər qaldırılan məsələlər üzrə Ali Məhkəmə Aparatının qəbulda iştirak edən aidiyyəti məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

Vətəndaşlar bölgə sakinlərinin qəbulu və müraciətlərinə baxılması ilə bağlı ölkə Prezidenti tərəfindən yaradılmış şəraitdən razılıqlarını ifadə ediblər.

* * *

"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev martın 13-də Salyan rayonunda sakinlərlə görüşüb.

"Azəriqaz"dan bildirilib ki, birliyin baş direktorunun müavinləri Ramil İsgəndərov və Cahid Hüseynov isə Neftçala və İmişli rayonlarında sakinlərin problemlərini dinləyiblər. Qəbula gələn sakinlərin əksəriyyəti yaşayış məntəqələrinin qazlaşdırılması, işə qəbul və müxtəlif məsələlərlə bağlı fikirlər səsləndiriblər. Hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib. Qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli barədə müvafiq strukturların rəhbərlərinə tapşırıqlar verilib.

***AZƏRTAC***

Qabaqlayıcı tədbirlər səmərə verir

# Koronavirusa qarşı mübarizə tədbirləri genişlənir

## Dünya Səhiyyə Təşkilatı: “Azərbaycan hökuməti problemin həllində qlobal səylərə töhfə verir”



**Çinin Uhan şəhərindən başlayıb, üç ay ərzində bütün dünyaya “ayaq açan” yeni növ COVID-19 - koronavirus infeksiyasının pandemik olduğu elan edildi. Bu barədə Dünya Səhiyyə Təşkilatının (DST) Baş direktoru Tedros Adanom Gebreyesus Cenevrədə təşkil edilən brifinqdə bildirdi. “Önümüzdəki günlərdə və həftələrdə yoluxma hallarının, ölümlərin və təsirə məruz qalan ölkələrin sayının artacağını gözləyirik... COVID-19-un pandemiya kimi xarakterizə oluna biləcəyi qənaətinə gəldik”, - deyə təşkilat rəhbəri qeyd edib.**

Vurğulayaq ki, pandemiya insandan-insana asanlıqla ötürülən yeni bir yoluxucu xəstəliyin qlobal miqyasda kütləvi yayılmasıdır. Bu söz hərfi olaraq yunanca “bütün xalq” mənasını verir. Pandemiya yoluxucu xəstəliyin bütün ölkəni, eyni zamanda onunla həmsərhəd ölkələri, bəzən çoxlu sayda ölkəni, qitələri bürüməsi mənasını verir. Hazırda pandemiya meyarlarının tam siyahısı bəlli olmasa da, koronavirusla bağlı martın 9-dan sonra qeydə alınan rəqəmlər bu meyarlara cavab verib və DST bu səbəbdən pandemiya elan edib.

DST-nin martın 13-nə olan statistikasına əsasən, 127 ölkədə virusa yoluxma halı qeydə alınıb. Ümumi yoluxanların sayı 134768, yeni yoluxanların sayı 102 nəfərdir. İndiyədək xəstəlikdən ölənlərin sayı 4083 nəfərdir. Onlardan 8-i yeni ölüm faktıdır. Koronavirusa yoluxanlardan 70387 nəfər sağalıb ki, onlardan 1300 nəfəri yeni sağalanlardır.

### Koronavirusla bağlı dünyada son durum

Virusun “vətən”i sayılan Çində ötən gün ərzində yeni tip koronavirus qurbanlarının sayı 7 nəfər artıb. Çin Xalq Respublikasının Gigiyena və Səhiyyə məsələləri üzrə Dövlət Komitəsinin məlumatına görə, gün ərzində virusa yoluxanların sayı 8 nəfər artıb, ölkədə daha 1318 insan sağalıb və xəstəxanalardan evə buraxılıb. Hazırda Çində koronavirusa yoluxanların ümumi sayı 80813 nəfər təşkil edir. Ölkənin 64111 sakini yeni virusdan sağalıb, 3176 nəfər ölüb.

İranda ötən sutka ərzində 1075 nəfər yeni koronavirusa yoluxub. Ümumilikdə İranda bu virusa yoluxanların sayı 10075 nəfərə çatıb. Ötən sutka ərzində 85 nəfər virusun qurbanı olub. Beləcə, koronavirusdan ölənlərin sayı 514 nəfərə çatıb. Bu günədək 3276 nəfər bu xəstəlikdən sağalıb.

Qeyd edək ki, İranın Birinci vitse-prezidenti Eshaq Cahangiri, eləcə də iki nazir koronavirus infeksiyasına yoluxub. Bunlar Turizm, Mədəni İrs və Sənətkarlıq naziri Əli Əsgər Munesan və Ticarət, Sənaye və Mədənlər naziri Rza Rəhmanidir. İranın ali rəhbərinin beynəlxalq məsələlər üzrə müşaviri, sabiq Xarici İşlər naziri Əli Əkbər Vilayəti də koronavirusa yoluxub. Ötən gün onda koronavirusun əlamətləri müşahidə olunub və karantinə alınıb. Ev şəraitində müalicə olunan Ə.Vilayəti özünü yaxşı hiss edir.

“Fars” agentliyinin dərc etdiyi siyahıda, həmçinin İran rəhbəri və ali lider administrasiyasının üzvü Məhəmməd Cavad İrəvaninin də adı yer alıb. Bundan əlavə, İran parlamentinin səkkiz millət vəkilinin də adları siyahıda dərc olunub. Onlardan ikisi - Fatimə Rəhbər və Məhəmməd Əli Ramazani xəstəlikdən ölüb.

İtaliyada sutka ərzində ümumi yoluxma hadisələrinin sayı 3 minə yaxın artıb, ölənlərin sayı 1000 nəfəri keçib. İtaliyanın Mülki Müdafiə xidmətinin rəhbəri Anjelo Borrelli deyib ki, ölkədə 213 nəfər sağalıb, onların sayı 1258-ə çatıb. Onun sözlərinə görə, ölən və sağalanlar da daxil olmaqla, yoluxma hallarının ümumi sayı 15 mini keçib.

İtaliyada koronavirusun yayılması riski səbəbindən ərzaq dükanları və apteklər istisna olmaqla bütün mağazalar bağlanır. İtaliyanın Baş Naziri Cüzeppe Konte ölkə daxilində bütün restoran və barların bağlandığını deyib. Evə yemək çatdırılması mümkündür. Bununla yanaşı ictimai nəqliyyat və bir sıra əsas xidmətlər, kənd təsərrüfatı sənayesi, o cümlədən bankların və sığorta şirkətlərinin fəaliyyəti davam edəcək. Fabriklər bütün ehtiyat tədbirlərinə riayət etmək şərti ilə açıq qalır.

ABŞ-da koronavirusa təsdiqlənmiş yoluxma halları 1162 nəfərə çatıb, 37 nəfər bu virusun qurbanına çevrilib. Bundan əvvəl 938 nəfərin virusa yoluxduğu deyilirdi və paytaxt federal dairə Kolumbiya da daxil olmaqla, 36 ştatda yoluxma hallarının olduğu ehtimal edilirdi. Ölənlərin sayının bundan əvvəlki göstəricisi isə 29 nəfər olub. Daha çox yoluxma halları Vaşinqton (267), Nyu York (173) və Kaliforniya (152) ştatlarında qeydə alınıb. Artıq Vaşinqton və Nyu Yorkda koronavirusa yoluxma hallarının artması ilə əlaqədar fövqəladə vəziyyət rejimi tətbiq edilib.

Gürcüstanın bütün dövlət qurumları isə koronovirusla bağlı 24 saatlıq fövqəladə iş rejiminə keçib. Ölkənin Baş Naziri Giorgi Qaxaria hökumətin iclasında vurğulayıb ki, xüsusən səhiyyə, daxili işlər, təhsil, ədliyyə, xarici işlər və maliyyə nazirlikləri fövqəladə rejimdə fəaliyyət göstərirlər.

Baş Nazirin sözlərinə görə, Gürcüstan Almaniya, Fransa, Avstriya və İspaniyadan gələn şəxslərin ölkəyə daxil olmasını da sərtləşdirib. Həmin ölkələrdən qayıdan bütün Gürcüstan vətəndaşları 14 günlük karantində saxlanılacaq, əcnəbi vətəndaşlar isə koronavirusa aid testin cavabı ilə bağlı arayış təqdim etməli və yaxud 14 günlük karantində qalmalı olacaqlar. Çin, Cənubi Koreya və İtaliyadan Gürcüstana gələn şəxslər üçün də məhdudiyyətlər qüvvədədir.

Giorgi Qaxaria dövlət orqanları və özəl təşkilatlara koronavirusun yayılmasının qarşısının alınması üçün mümkün olduğu qədər uzaqdan iş şəraitinə keçməyi tövsiyə edib. O, distant iş rejiminin hökumətin fəaliyyətinin effektivliyinə təsir etməməsinin vacibliyini vurğulayıb.

Qeyd edək ki, bu günə qədər qonşu ölkədə koronavirusa 25 yoluxma halı təsdiqlənib. Karantində 295, stasionar nəzarətdə isə 49 nəfər saxlanılır. Gürcüstanın Məcburi Köçkünlərin İşləri, Əmək, Səhiyyə və Sosial Müdafiə naziri Ekaterine Tikaradzenin köməkçisi koronavirus şübhəsi ilə karantinə alınıb. Çünki köməkçinin həyat yoldaşında koronavirusa yoluxma təsdiqlənib.

Fransada sutka ərzində koronavirus xəstələrinin sayı təxminən 600 nəfər artaraq 2876 nəfərə çatıb, qurbanların sayı 60-ı keçib. Son məlumatlara görə, Fransada 2876 xəstələnmə hadisəsi təsdiq edilib, 129 nəfərin vəziyyəti ağırdır. 61 nəfər həlak olub.

Avropanın daha iki ölkəsi - Latviya və Estoniyada koronavirusa görə fövqəladə vəziyyət elan edilib. Estoniyada fövqəladə rejim tədbirləri 2020-ci il mayın 1-dək, Latviyada isə aprelin 14-dək davam edəcək. Qərar martın 13-dən qüvvəyə minib. Bütün təhsil müəssisələrində karantin tətbiq edilib. Bu günlərdə Latviyanın 90 məktəb və uşaq bağçalarında virusa yoluxma halı aşkar edilib.

Estoniyada mayın 1-dək muzey, kinoteatrlar bağlanıb, konsertlər, konfrans və idman yarışları qadağan olunub.

Dünən səhər saatlarına olan məlumata əsasən, Latviyada 16, Estoniyada isə 27 koronavirusa yoluxma faktı qeydə alınıb.

Türkiyədə koronavirus daşıyıcılarının sayı 2-yə çatıb. Türkiyənin Mədəniyyət və Turizm naziri Mehmet Nuri Ersoy bildirib ki, turizm müəssisələrinin mövsüm açılışı martın 16-dan aprelin 16-na keçirilib. Türkiyənin Ali Təhsil Şurası martın 16-dan başlayaraq ali təhsil müəssisələrində 3 həftəlik tətilin olacağını elan etməklə yanaşı, universitetlərdə bütün tədbirlərin müvəqqəti olaraq ləğvi haqqında qərar verib. 3 həftəlik tətildən sonra Türkiyə Səhiyyə Nazirliyinin verdiyi qərara uyğun olaraq addım atılacaq. Ölkə miqyasında bir çox mədəni-kütləvi tədbirlər də təxirə salınıb, hətta bəzi özəl teatrlarda biletləri satılan tamaşaların nümayişi belə ləğv olunub. Türkiyə Ədliyyə Nazirliyi həbsxanalarda ziyarətlərin ləğv olunduğunu açıqlayıb. Bir çox siyasi partiyalar da mart-aprel aylarında keçiriləcək tədbirlərin tarixini dəyişib.

Səudiyyə Ərəbistanında yeni növ koronavirusa yoluxanların təsdiqlənmiş sayı 62-yə çatıb. Bundan əvvəl ölkədə 45 nəfərin virusa yoluxduğu bilinirdi.

Braziliya Prezidenti Jair Bolsonarudan koronavirusla bağlı götürülmüş test müsbət nəticə verib. Prezidentin mətbuat katibi Fabio Vaynqarten də analiz verib və onda da koronavirus aşkar edilib.

Qeyd edək ki, Braziliyanın yüksək səviyyəli nümayəndə heyəti martın 7-dən 10-dək ABŞ-da səfərdə olub, bu müddətdə Braziliya Prezidenti və komandası ABŞ Prezidenti Donald Tramp ilə görüşüb.

Avstraliyanın Daxili İşlər naziri Piter Dattona koronavirus diaqnozu qoyulub. O, səhər yüksək hərarət və boğaz ağrısı ilə oyanıb. Müayinə nəticəsində nazirin koronavirusa yoluxduğu aşkarlanıb. Hazırda Avstraliyada koronavirus daşıyıcılarının sayı 160 nəfərdir. 3 nəfər virusdan ölüb.

İspaniyanın Ərazi Siyasəti və Dövlət Qulluğu naziri Karolina Darias koronavirusa yoluxub. Bundan öncə İspaniyanın Bərabərlik nazirində koronavirusun aşkarlandığı açıqlanmışdı.

Kanadanın Baş Naziri Castin Trüdonun xanımı koronavirusa yoluxub. Bu barədə Kanadanın hökumət başçısının mətbuat katibi Kemeron Əhmədin xəbərində deyilir. “Sofi Qrequar-Trüdo həkimlərin tövsiyələrindən sonra COVID-19 testindən keçdi. Nəticələr müsbət oldu”, - o deyib. Əhmədin sözlərinə görə, Baş Nazirin həyat yoldaşı ətrafdan təcrid ediləcək.

Qeyd edilir ki, Baş Nazir Trüdo özünü yaxşı hiss edir və onda koronavirus əlaməti yoxdur. Amma onun xanımı 14 gün ərzində ev karantinində olacaq.

Belçikada koronavirusa yoluxanların sayı 399 nəfərə çatıb. Ölkədə üç nəfər infeksiyanın qurbanı olub. Belçikanın Baş Naziri Sofi Vilmes bildirib ki, cümə günü gecə yarısından şənbə gününə kimi ölkədə ümumi karantin tətbiq ediləcək. İctimai iaşə müəssisələri, disko-klublar, təhsil müəssisələri bağlanacaq.

Kubada koronavirusa ilk yoluxma faktı aşkarlanıb. Martın 9-da Kubanın paytaxtı Havanaya turist olaraq səfər edən İtaliyanın 3 vətəndaşının müayinəsi nəticəsində onların virus daşıyıcısı olduğu müəyyənləşib.

Qeyd edək ki, Latın Amerikasında yerləşən Argentinada 21 nəfərdə virus aşkarlanıb. Onlardan biri ölüb. Latın Amerikasının başqa ölkələrində - Çilidə 23 nəfər, Ekvadorda 17, Braziliyada 52, Meksikada 8, Peruda 13, Kolumbiyada 9, Kosta-Rikada 22, Dominikan Respublikası və Paraqvayda 5, Panamada isə 8 nəfərə koronavirus diaqnozu qoyulub.

Dünyanın daha 3 ölkəsində koronavirusa ilk yoluxma halı qeydə alınıb. Mərkəzi Afrikada yerləşən Qabonda 27 yaşlı ölkə vətəndaşı bu virusa yoluxub. O, bu yaxınlarda Fransadan qayıdıb. Xəstə karantinə alınıb və onun vəziyyətinin yaxşılaşdığı bildirilir.

Ada dövləti Trinidad və Tobaqoda da ilk koronavirusa yoluxma faktı təsdiqlənib. İnfeksiyaya yoluxan 52 yaşlı kişidir. O, bazar ertəsi İsveçrədən qayıdıb. Həmin şəxsdə ilk günlər virusun əlamətləri aşkarlanmayıb.

Koronavirusun ilk dəfə aşkarlandığı daha bir ölkə Qanadır. Virusa iki yerli sakin tutulub. Onlardan biri bu yaxınlarda Norveçdən, digəri isə Türkiyədən qayıdıb. Hər iki xəstə karantinə yerləşdirilib.

Ermənistanda koronavirusa yoluxmuş vətəndaşların sayı səkkiz nəfərə çatıb.

Rumıniyada koronavirusa yoluxanların sayı 29-dur. Ölkə ərazisində xəstələrin sayı birdən-birə 17-dən 29-a yüksəlib. Xəstələrin əksəriyyəti İtaliyadan Rumıniyaya gələn koronavirusa yoluxmuş bir şəxslə ünsiyyətdə olublar.

Hazırda paytaxt Buxarestdə 8 nəfər xəstəxanaya yerləşdirilib. Ümumilikdə, 107 nəfər karantinə alınıb. Ölkə ərazisindəki bütün məktəblərdə martın 22-nə kimi tətil elan olunub.

### Azərbaycanda vəziyyət nəzarət altındadır

Nazirlər Kabinetinin yanında operativ qərargahın məlumatına görə, İran İslam Respublikası və İtaliyadan qayıdan dörd nəfər Azərbaycan Respublikasının vətəndaşında koronavirus infeksiyasına yoluxma faktı qeydə alınıb. Həmin şəxslər xüsusi rejimli xəstəxanalara yerləşdirilib, hazırda onların səhhəti normaldır, müalicələri ilə bağlı müvafiq tədbirlər həyata keçirilir.

Bundan əvvəl xüsusi rejimli xəstəxanalara yerləşdirilmiş 1938-ci il təvəllüdlü Azərbaycan Respublikası vətəndaşının səhhəti stabil ağır olaraq qalır. Xəstə ciddi nəzarət altında saxlanılır və müalicəsi ilə bağlı zəruri tədbirlər görülür.

Koronavirus infeksiyası aşkarlanmış digər şəxslərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir, onların səhhəti ciddi nəzarət altında saxlanılır.

Operativ qərargahın martın 12-nə olan məlumatına görə, İran İslam Respublikasında müalicə olunduqdan sonra qayıdan Azərbaycan vətəndaşı, 1969-cu il təvəllüdlü qadının ağır autoimmun xəstəliyi ilə bağlı xroniki ağırlaşmaları dərinləşib, çoxsaylı orqan çatışmazlığı inkişaf edib, bütün səylərə baxmayaraq, onun həyatını xilas etmək mümkün olmayıb.

Xatırladaq ki, müayinələr zamanı onda ağır autoimmun xəstəlik olan qırmızı qurdeşənəyi (Sistemik Lupus Eritematozus), 4-cü sinif lupus nefriti və xroniki böyrək çatışmazlığının son mərhələsi olduğu müəyyən edilmişdi. Ağır gedişli autoimmun xəstəlik fonunda xəstədə ciddi ağciyər zədələnməsi və buna bağlı tənəffüs çatışmazlığı, həmçinin yüksək dozalı steroid və kimyəvi dərman müalicəsi fonunda ciddi immun yetməzlik aşkarlanmış, eyni zamanda, koronavirus infeksiyasına yoluxduğu müəyyənləşdirilmişdi.

Xəstənin ünsiyyətdə olduğu ailə üzvləri və digər şəxslər müəyyən edilib, onlar karantinə götürülüb.

“Bir daha vətəndaşlarımızı Dünya Səhiyyə Təşkilatı və operativ qərargahın virusa qarşı profilaktik tədbirlər çərçivəsindəki tövsiyələrinə ciddi riayət etməyə, insanların kütləvi toplaşdığı yerlərdən uzaq durmağa, tibbi-profilaktik və dezinfeksiya qaydalarına əməl etməyə çağırırıq”, - deyə operativ qərargahın məlumatında bildirilir.

Azərbaycanda koronavirusun yayılmasının qarşısının alınması və infeksiyaya yoluxma hallarının müəyyənləşdirilməsi məqsədilə müxtəlif xəstəxanalarda yaradılmış karantin zonalarına daxil olan şəxslərin də müayinəsi davam etdirilir. DST-nin tövsiyələrinə uyğun olaraq, karantinə alınan şəxslər müvafiq müayinədən keçirilir, o cümlədən onlardan laborator analizlər götürülür, səhhətləri nəzarət altında saxlanılır. İnfeksiyaya yoluxma faktı təsdiq olunan şəxslər dərhal xüsusi rejimli xəstəxanalara köçürülür, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər görülür.

Martın 10-na olan məlumata görə, müayinə və laborator analizlər vasitəsilə infeksiyaya yoluxma faktı təsdiq edilməyən və səhhəti şübhə doğurmayan 312 nəfər karantin müddətini başa vurub. Koronavirus infeksiyasına yoluxduqları müəyyən edilmiş 3 Azərbaycan vətəndaşı xüsusi rejimli xəstəxanalarda müvafiq müalicə alaraq sağalıblar və evə buraxılıblar.

### Azərbaycan həkimlər üçün qoruyucu vasitələr alacaq

DST ekspertlərindən ibarət qrup hazırda Azərbaycandadır, “COVID-19”-a cavab planı və 3-6 aylıq milli hazırlığı inkişaf etdirmək üçün milli cavab (reaksiya) komitəsi ilə işləyir.

DST-nin Avropa üzrə Regional Ofisinin məlumatında bildirilir ki, 6 nəfərdən ibarət qrup aşağıda qeyd olunanlarla yanaşı, müxtəlif tədbirlərin görülməsində Azərbaycan hökumətinə yardım edir:

*- cavab planlaşdırması;*

*- zəruri səhiyyə xidmətləri və biznesin davamlılığı;*

*- keyslərin araşdırılmasından tutmuş milli sınaq laboratoriyalarına qədər nəzarət strategiyası;*

*- xəstəxana hazırlığı və halların klinik idarə olunması;*

*- evdə və milli sərhədlərdə infeksiyanın qarşısının alınması profilaktikası və nəzarət;*

*- zəruri dərman, diaqnostika və sağlamlıq üçün avadanlıqlarla təmin etmək;*

*- məlumatları paylaşmaq, icmalar və təsiretmə gücü olanlarla əlaqə yaratmaq və şayiələri idarə etmək üçün risk ünsiyyət strategiyasını hazırlamaq;*

*- ağır nəticələri minimuma endirmək üçün səyahət və ticarətlə bağlı tövsiyə olunan tədbirlər barədə məlumatlandırmaq;*

*- beynəlxalq tərəfdaşlıq çərçivəsində gələcək əməkdaşlıq imkanlarını müəyyənləşdirmək.*

5 günlük missiya çərçivəsində komanda 9-13 mart tarixində Səhiyyə Nazirliyi və TƏBİB-lə işləyir, milli və regional xəstəxanalara, Qida Təhlükəsizliyi Agentliyi laboratoriyalarına, Azərbaycan Tibb Universitetinə və sərhəd-keçid nöqtələrinə baş çəkir. Missiyaya DST-nin Azərbaycandakı nümayəndəliyi dəstək verir.

Qeyd olunub ki, Azərbaycan DST ilə səmərəli əməkdaşlıq edir və koronavirusun yayılmasının qarşısını almaq üçün ən qabaqcıl laboratoriya dəstlərini alan 17 ölkədən biridir. İlk dəstlər fevral ayında paylanıb, ikinci dəst isə hazırda göndərilməkdədir. Ölkə həm “COVID-19” virusuna yoluxmaqda şübhəli və virusa yoluxduğu təsdiqlənmiş xəstələrə qayğı göstərən tibb işçiləri, həm də şübhəli halları yoxlayan laboratoriya heyəti üçün lazım olan fərdi qoruyucu vasitələr alacaq.

Məlumatda deyilir ki, Azərbaycan hökuməti qonşu ölkələrlə koordinasiyalı şəkildə “COVID-19” problemini həll etmək üçün qlobal səylərə töhfə verir və DST-nin strateji hazırlıq və cavab planına 5 milyon ABŞ dolları ayırıb. Bu plan DST də daxil olmaqla beynəlxalq səhiyyə təşkilatları tərəfindən ehtiyac duyulan fəaliyyət və resursları, 2020-ci ilin aprel ayına qədər “COVID-19”-a hazırlaşmaq və ona cavab vermək üçün ölkələrə dəstək məqsədilə prioritet ictimai səhiyyə tədbirlərini həyata keçirməyi əhatə edir. Həmçinin bu plan beynəlxalq koordinasiya və əməliyyat dəstəyini, ölkələrin hazırlığı və cavab əməliyyatlarının miqyasını genişləndirməyi, prioritet tədqiqat və innovasiya işlərini sürətləndirməyi nəzərdə tutur.

### Vizaların rəsmiləşdirilməsi dayandırılır

Nazirlər Kabinetinin yanında operativ qərargahdan bildirilib ki, koronavirus infeksiyasının tənəffüs damcıları ilə birbaşa təmas yolu ilə ötürüldüyü və yuxarı tənəffüs yollarının infeksiyası kimi təzahür etdiyi nəzərə alınaraq, ölkə ərazisindəki bütün ictimai iaşə obyektlərində çoxdəfəli istifadə üçün nəzərdə tutulmuş qəlyan avadanlıqlarından istifadə qadağan olunur. Müvafiq dövlət orqanları qadağanın icrasına ciddi nəzarət edəcəklər.

DST tərəfindən koronavirus infeksiyasının qlobal pandemiya elan olunduğunu nəzərə alaraq, Azərbaycan Respublikası ərazisində virusun yayılmasının qarşısını almaq məqsədilə “ASAN Viza” elektron portalı vasitəsilə 45 gün müddətinə vizaların rəsmiləşdirilməsi dayandırılır. Ölkəmizə səfər etmək istəyən xarici vətəndaşların viza rəsmiləşdirilməsi üçün Azərbaycan Respublikasının müvafiq səfirlik və baş konsulluqlarına müraciət etmələri xahiş olunur.

Azərbaycan Respublikasının səfirlik və baş konsulluqlarının konsulluq xidməti xüsusi rejimdə fəaliyyət göstərəcək.

DST-nin təqdim etdiyi siyahıya əsasən, xüsusilə koronavirusun geniş yayıldığı ölkələrin vətəndaşlarından viza rəsmiləşdirilməsinə müraciət edərkən COVID-19 testindən keçmələri barədə tibbi arayış da tələb olunacaq. Bu şərtlər son 14 gün ərzində həmin ölkələrdə olmuş digər əcnəbi vətəndaşlara da şamil ediləcək.

Azərbaycana səfər edən əcnəbi ölkə vətəndaşları fərdi tibbi göstəricilər nəzərə alınmaqla 14 gün müddətinə karantin rejiminə yerləşdirilə və ya ev şəraitində 14 günlük fərdi karantin rejiminə riayət etmələri tələb oluna bilər. Həmçinin əcnəbi vətəndaşlar “COVID-19” testindən keçirilə bilər.

Çin Xalq Respublikası, Cənubi Koreya, İran İslam Respublikası, Yaponiya, İtaliya, İspaniya, Fransa, Almaniya və digər risk qrupu ölkələrdən qayıdan Azərbaycan Respublikası vətəndaşları 14 və ya tələb olunduğu halda, 21 günlük karantin rejimində saxlanılacaqlar. Bütün vətəndaşlardan COVID-19 virusu ilə əlaqədar Azərbaycan Respublikası ərazisində tətbiq olunan karantin rejiminə riayət etmələri tələb olunur.

Çin Xalq Respublikası, Cənubi Koreya, İran İslam Respublikası, Yaponiya, Avropa İttifaqı ölkələri, xüsusilə İtaliya, İspaniya, Fransa, Almaniya və digər ölkələrdə olan Azərbaycan Respublikası vətəndaşlarının ölkəmizin aidiyyəti səfirlik və konsulluqlarında qeydiyyata düşmələri və olduqları ölkələrin COVID-19 virusu ilə əlaqədar müəyyən etdikləri karantin qaydalarına riayət etmələri xahiş edilir.

Azərbaycan Respublikası vətəndaşlarının yaxın iki ay müddətinə xüsusi zərurət olmadığı təqdirdə xarici ölkələrə səfərlərdən çəkinmələri ciddi şəkildə tövsiyə olunur.

### Rus bölməsinin şagirdləri üçün də videodərslər keçiriləcək

Hökumət bu virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı bütün lazımi tədbirləri yüksək səviyyədə davam etdirir. Bununla bağlı müvafiq maarifləndirici, eyni zamanda tibbi baxımdan tədbirlər həyata keçirilir, DST-nin tövsiyələrinə uyğun olaraq digər zəruri addımlar atılır. Yoluxma hallarının qarşısının alınması məqsədilə ölkədə dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlər intensivləşdirilir. Bütün bağça, orta məktəb və ali təhsil müəssisələrində, hər növ ictimai nəqliyyatda, dövlət və özəl müəssisələrdə dezinfeksiya işləri aparılır.

Nazirlər Kabinetinin sərəncamına əsasən, yoluxma hallarının qarşısının alınması və ölkə ərazisində yerləşən bütün təhsil müəssisələrində tibbi-profilaktik, dezinfeksiyaedici və digər qabaqlayıcı tədbirlərin davam etdirilməsi məqsədilə martın 10-dan 20-dək tədris, təlim-tərbiyə prosesi dayandırılıb və tədbirlər təxirə salınıb. Təhsil Nazirliyi bu müddət ərzində şagirdlərin dərs proqramından geri qalmaması üçün videodərslərin keçirilməsinə başlayıb. Belə ki, martın 11-dən etibarən Azərbaycan Televiziyasının “Mədəniyyət” kanalında “Dərs vaxtı” adlı teledərslərə start verilib. Təhsil Nazirliyi ilə birgə həyata keçirilən layihə səhər saat 10:00-da başlayıb, fasilələrlə saat 16:00-dək davam edir. Teledərslər bütün sinifləri əhatə edir, dərs mövzularına dair qısa izah və təlimatlar təqdim olunur. Belə ki, ibtidai sinif şagirdləri üçün “Azərbaycan dili”, “Riyaziyyat”, “Həyat bilgisi”, “Təsviri incəsənət”, “Xarici dil”, 5-11-ci sinif şagirdləri üçün isə “Azərbaycan dili”, “Riyaziyyat”, “Xarici dil”, “Tarix”, “Coğrafiya”, “Kimya”, “Fizika”, “Biologiya” fənləri üzrə qısa videodərslər təqdim edilir. Dərslər martın 27-nə kimi həftəiçi hər gün yayımlanacaq.

Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov deyib ki, “Dərs vaxtı” verilişinə olan maraq kifayət qədər yüksəkdir. Martın 11-i videodərslərin keçirildiyi ilk gün olsa da, dərsləri izləyənlərin sayı çox olub: “Videodərslər “Mədəniyyət” kanalının “Facebook” səhifəsində də yerləşdirilir. İki gün əvvəl həmin səhifədəki abunəçilərin sayı 2000 olduğu halda, indi 13 mini ötüb. Bunlar videodərslərə olan marağın göstəricisidir. Biz bu dərslərin maraqlı və keyfiyyətli olması üçün səylərimizi əsirgəmirik”.

Təhsil Nazirliyi gələn həftədən ümumtəhsil müəssisələrində rus bölməsinin şagirdləri üçün də videodərslərin keçirilməsinə başlayacaq. C.Valehov rus bölməsi üzrə videodərslərin “Mədəniyyət” kanalında Azərbaycan bölməsi üçün ayrılan dərs vaxtından kənar təqdim ediləcəyini əlavə edib.

### Ali məktəblərdə tədris ilinin müddəti uzadıldı

Azərbaycanın ali məktəblərində tədris ilinin müddəti 15 gün uzadılıb. Bu barədə Təhsil nazirinin müavini Firudin Qurbanov ali təhsil müəssisələrinin rəhbərlərinə təlimat məktubu imzalayıb.

Təlimat məktubunda qeyd edilib ki, buraxılış kursları istisna olmaqla, digər tələbələrin dərsləri martın 27-də başlayacaq və mövcud akademik təqvimlə müəyyən edildiyi kimi, mayın 30-dək deyil, iyunun 15-dək davam edəcək. Başqa sözlə, tədris ilinin müddəti 15 gün artırılacaq.

Müvafiq olaraq imtahan sessiyasına mövcud akademik təqvimdə ayrılan həftələrin sayı 5 deyil, 4 həftə müəyyən edilib. Məktubda imtahan sessiyasının 15 iyun - 13 iyul tarixlərində keçirilməsi qərara alınıb.

Ali təhsil müəssisələrinin sonuncu kurs tələbələrinin nəzəri təlim müddətinin başa çatdığını, onların hazırda təcrübədə olduğunu nəzərə alaraq müvafiq ixtisaslar üzrə sonuncu kursda təhsil alan tələbələrin (“Təhsil” ixtisasları qrupuna daxil olan ixtisaslar (pedaqoji ixtisaslar) üzrə təhsil alanlar istisna olmaqla) tədris qrafiki dəyişməyəcək, yəni dövlət attestasiyasının keçirilməsi qrafikə uyğun iyun ayının sonunadək aparılacaq. “Təhsil” ixtisasları qrupuna daxil olan ixtisaslar (pedaqoji ixtisaslar) üzrə tələbələrin təcrübəsi (təcrübə orta ümumtəhsil məktəblərində aparıldığına və burada dərslər iyunun 14-nə qədər davam etdiyinə görə) iyunun 15-nə qədər davam etdiriləcək və bu zaman dövlət attestasiyası iyunun 15-dən iyulun 13-dək aparılacaq.

### Milli Kitabxana qapılarını bağladı

Koronavirus təhlükəsinə görə, paytaxtda və respublikanın müxtəlif regionlarında mart ayında keçirilməli olan ənənəvi Novruz şənlikləri ləğv edilib. Azərbaycanda fəaliyyət göstərən teatr və konsert müəssisələri də epidemiya təhlükəsinə görə fəaliyyətini dayandırıb. Bununla bağlı Mədəniyyət naziri Əbülfəs Qarayev müvafiq əmr imzalayıb. Əmrə əsasən, martın 7-dən etibarən mədəniyyət müəssisələrində konsert və tamaşalar təxirə salınıb. Teatr və konsert müəssisələri fəaliyyətini martın 27-dən sonra davam etdirəcək.

Azərbaycan Milli Kitabxanası koronavirus təhlükəsi ilə əlaqədar ölkədə həyata keçirilən tədbirlər çərçivəsində oxuculara xidməti martın 11-dən etibarən müvəqqəti dayandırıb. Kitabxana qeyri-müəyyən vaxta qədər oxuculara xidmət göstərməyəcək. Lakin Milli Kitabxananın onlayn xidmətlərindən istifadə etmək mümkün olacaq.

“Milli Kitabxananın əməkdaşları var qüvvəsi ilə çalışır. Xahiş edirik, Sizə lazım olan resursları əldə etmək üçün Milli Kitabxananın onlayn xidmətlərinə yazın. Ölkədə fəaliyyət göstərən digər kitabxanalar da istifadəçilərin sorğularını ödəmək üçün Milli Kitabxananın onlayn xidmətlərinə müraciət edə bilərlər”, - deyə Milli Kitabxananın məlumatında bildirilir.

### AMEA-da koronavirusla bağlı tədbirlər

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) elmi müəssisə və təşkilat rəhbərlərinə ciddi zərurət olmadığı halda müxtəlif xarakterli kütləvi tədbirlərin keçirilməsinin məhdudlaşdırılması, işçilərin koronavirusun yayıldığı ölkələrə ezamiyyətlərinin dayandırılması, AMEA-nın müvafiq inzibati binalarında müntəzəm olaraq sanitar-dezinfeksiya işlərinin həyata keçirilməsi, təqaüd yaşlı işçilərin işə davamiyyətində güzəştli şərtlərin tətbiq edilməsi tapşırılıb.

Bu barədə AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyevin koronavirusla bağlı profilaktik tədbirlər haqqında imzaladığı sərəncamda qeyd olunub. Sənəddə, həmçinin qrip əlaməti müşahidə olunan işçilərin işə davamiyyətinin məhdudlaşdırılması və onların dərhal həkimə müraciət etmələri üçün maarifləndirici işlər aparılması, əlavə güzəştli davamiyyət rejiminin tətbiqi, AMEA-nın müvafiq inzibati binalarının girişlərində qripə yoluxma hallarının müəyyənləşdirilməsinə imkan verən ilkin tibbi yoxlamaların tətbiq edilməsi məsələləri ilə bağlı müvafiq tapşırıqlar verilib.

AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin müvafiq mütəxəssisləri tərəfindən koronavirusdan qorunma üsulları ilə bağlı kütləvi informasiya vasitələrində çıxışlar edilməsi, maarifləndirici materialların dərc etdirilməsi də sərəncamda əksini tapıb.

Bununla yanaşı, sənəddə AMEA Rəyasət Heyətinin binasında tibb məntəqəsinin təşkil edilməsi tapşırılıb.

Daxili İşlər Nazirliyinin (DİN) tabeliyində olan Müvəqqəti Saxlanma Yerlərində saxlanılan şəxslərlə görüşlərə, onlara sovqatların verilməsinə də məhdudiyyət qoyulub. DİN-in mətbuat xidmətinin rəisi Ehsan Zahidov qeyd edib ki, koronavirusa yoluxma təhlükəsinin qarşısının alınması məqsədilə DİN-in Müvəqqəti Saxlanma yerlərində sanitar-epidemioloji, profilaktik və izahedici tədbirlər həyata keçirilir və bununla əlaqədar saxlanılan şəxslərə görüş verilməsi və sovqat qəbulu məhdudlaşdırılıb.

Ədliyyə Nazirliyi Penitensiar Xidmətinin müəssisələrində koronavirus təhlükəsi ilə əlaqədar məhkumlarla görüş və sovqat qəbulunun dayandırılması davam edir. Penitensiar Xidmətin müəssisələrində sanitar-epidemioloji, profilaktik və izahedici tədbirlər həyata keçirilir.

Nazirlər Kabinetinin yanında operativ qərargah mütəxəssislərlə aparılan məsləhətləşmələrdən və Dünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək ayrı-ayrı qurumları yaxın müddətdə hər hansı kütləvi tədbir keçirməməyə, artıq təyin olunan tədbirlərin tarixini isə dəyişdirməyə çağırır. Həmçinin adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma riski yüksək olduğundan, qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir.

Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılan tədbirlərə dəstək olaraq vətəndaşlar bir daha adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmağa, xarici ölkələrə, eyni zamanda risk qrupu ölkələrinə səfərlərini təxirə salmağa, vacib səfərlər zamanı isə qoruyucu tədbirlərə maksimum riayət etməyə çağırılır.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***




# Cəlilabadda yaz tarla işləri sürətlənir

Bu yaz bir az tez gəlmişdir. Alça, şaftalı, badam ağacları əvvəlki illərə nisbətən təxminən 10-15 gün erkən çiçəkləmişdir. Martın əvvəllərində yağan yağışlar çölü-düzü yamyaşıl çəmənliyə bürümüş, qarçiçəyi, novruzgülü ləçəklənmişdir. Bir sözlə, kənd-kəsəyin indi ayrı vaxtıdır. İndi həm də kəndlinin əlinin iş-gücdən ayrılmayan zamanıdır.

## Taxıl qulluq sevir

Taxılçılıq Cəlilabad üçün ənənəvi sahədir. Münbit torpaq, zəhmətkeş adamların əməyi sayəsində burada həmişə yüksək məhsul yetişdirilmişdir. Tarixin müəyyən dövrlərində, məsələn, Birinci Dünya müharibəsi zamanı bu torpağın buğdası nəinki Cəlilabad, ətraf rayonların əhalisini də aclıq və səfalətdən xilas etmişdir.

Bu gün də taxılçılıq rayonun iqtisadiyyatında mühüm yer tutur. Keçən il burada 203 min 708 ton buğda, 15 min 871 ton arpa, 10 min 18 ton vələmir istehsal edilmişdir. Cari ilin məhsulu üçün isə keçən ilin payızında 63 min 400 hektarda səpin aparılmışdır. Bunun 54 min 500 hektarı buğda, 4 min 600 hektarı arpa, 4 min 300 hektarı vələmirdir. Qışın mülayim və yağmursuz keçməsi bitkilərin inkişafına mənfi təsir göstərsə də, mart ayının əvvəlində günboyunca davam edən sızqa yağış vəziyyəti düzəltmişdir. Torpağın humus qatına keçən bu yağıntı bitkilərin köklərini kifayət qədər su ilə təmin etmişdir. Yalnız bundan sonra hər bir fermerdə, torpaq mülkiyyətçisində xoş əhvali-ruhiyyə, yüksək məhsul üçün ümid yaranmışdır.

Cəlilabad torpaqları əsasən dəmyədir. Taxıl əkilən sahələrdən yalnız 6 min 500 hektarı suvarılandır. Sudan söz düşmüşkən qeyd edək ki, rayon ərazisində 84 subartezian quyusu mövcuddur. Yeni qazılan 12 quyuda isə işlər başa çatdırılmaq üzrədir. Cari ildə də daha bir neçə quyunun qazılması nəzərdə tutulur.

Bu il taxılda gəmiricilərin və digər ziyanvericilərin olmaması əkinçiləri sevindirir. Mütəxəssislərin dediyinə görə, bu, keçən il ziyanvericilərə qarşı mübarizənin nümunəvi təşkil edilməsi ilə bağlıdır. Yüksək məhsuldarlıq üçün yemləmənin, mineral gübrələrin - azotun, karbamidin əkinlərə vaxtında verilməsi də mühüm şərtdir. Təəssüf hissi ilə qeyd etməliyik ki, ümumi taxıl əkinlərinin mart ayının 15-nə kimi yalnız 5 min 500 hektarında bu tədbir həyata keçirilmişdir. Səbəb fermerlərin kartına vəsaitin vaxtında köçürülməməsidir. Vaxt isə keçir. Taxıl inkişaf fazasındadır. Bundan belə gübrəsəpən texnika sahəyə girəndə bitkiləri əzib-tökəcək, habelə gecikən yemləmənin də əhəmiyyəti olmayacaq.

## Kartof sahələri bol məhsuldan xəbər verir

Keçən il yetişdirilən kartof yaxşı pula getdi. Fermerlərin, torpaq mülkiyyətçilərinin qazancı əvvəlki illərlə müqayisədə yüksək oldu. Bu səbəbdən cəlilabadlılar ümumilikdə keçən ildəkindən 500 hektar çox - 5 min 200 hektarda kartof əkmişlər. Havaların mülayim keçməsini nəzərə alaraq kartof əkinləri əvvəlki illərlə müqayisədə bir ay tez - yanvar ayında aparılmışdır.

Rayon ərazisinə daxil olan kimi yolun hər iki tərəfində cücərti alınmış kartof sahələri diqqəti cəlb edir. Bir tərəfdə qızlar-gəlinlər torpaqdan baş qaldırıb yarpaq bağlayan kartof sahələrini alaqdan təmizləyir, digər tərəfdə ata qoşulmuş xışla cərgələrin arası yumşaldılır, bitkilərin dibi doldurulur. Sahələrdə belə yaxşı çıxışın olmasını kartofçuluqla məşğul olanlar da bu ayın əvvəlində yağan yağışla əlaqələndirirlər. Arzu edirlər ki, Novruz bayramından bir neçə gün sonra və aprel ayının ortalarında yağış yenə yağsın. Qalan aqrotexniki tədbirləri isə onlar vaxtında icra etməyi nəzərdə tutublar, çünki bu sahədə çoxillik təcrübələri var.

Cəlilabadda il ərzində 3 dəfə kartof əkilib-becərilir. Sellofan örtüklər altında yetişdirilən məhsul may ayının əvvəllərində yığılır və nübar məhsul kimi ölkəmizin, habelə qonşu Rusiya Federasiyasının müxtəlif şəhərlərinin, xüsusilə Moskvanın bazarlarında sahibkarları qane edən qiymətə satılır. Bundan sonra açıq havada becərilən faraş kartof yığılır. Onun da çoxu Rusiyanın bazarlarına daşınır. Payızlıq kartof isə az əkilir, çünki məhsuldarlığı nisbətən aşağı olur və yalnız daxili bazarlarda satılır.

## Üzüm bağları hələlik çılpaq görünür

Hazırda rayonda 1401 hektar üzüm bağı vardır. Bu, sovet dövründəkindən qat-qat azdır. Səbəb məlumdur. M.Qorbaçovun hakimiyyəti illərində alkoqolizmlə mübarizə pərdəsi altında SSRİ-nin hər yerində olduğu kimi, Azərbaycanda da üzüm bağları məhv edildi, şərab zavodları bağlandı.

Dövlət müstəqilliyinin bərpasından sonra bu sahənin bərpa edilməsi, üzümçülükdə əldə edilən nailiyyətlərin, onun keçmiş şöhrətinin geri qaytarılması üçün tədbirlər görüldü, dövlət proqramı qəbul edildi. Bu tədbirlər çərçivəsində Qarazəncir kəndində müasir texnoloji avadanlıqlar quraşdırılmış yeni şərab zavodu tikilib istifadəyə verildi. İndi rayonda üzüm sahələri ildən-ilə genişlənir. Fransadan gətirilən nadir üzüm sortları bol bar verir.

Artıq tənəklərin budanması və cərgələrarası şum vaxtında və keyfiyyətlə başa çatdırılıb, digər işlər görülüb. Bu günlər suvarma aparılır. 800 hektardan çox sahə suvarılmışdır. Həyata keçirilən tədbirlər, bağların mövcud vəziyyəti deməyə əsas verir ki, cari ildə də Cəlilabad üzümçüləri yüksək nəticələr əldə edəcəklər.

## Çiyələk sahələri göz oxşayır

Cəlilabad torpağı hər növ məhsul yetişdirməyə qadir olsa da, zəhmətkeş insan, bacarıqlı mütəxəssis amili mühüm şərtdir. Məhz bunun hesabına rayonda çiyələk də yetişdirilir, özü də intensiv.

Taxıl, üzüm, kartofla müqayisədə çiyələyin əkilib-becərilməsi nisbətən yeni sahədir. Lakin rayondakı fermerlərin təşəbbüskarlığı ilə çiyələk istehsalı ildənilə artır. Türkiyədən, Kanadadan və digər yerlərdən daha məhsuldar sortlar gətirilir. Şitillər adətən payızda əkilir. Üstü sellofanla örtülən sahələrin məhsulu daha tez yetişir və nübar məhsul kimi baha satılır.



Az müddət ərzində bu sahədə də zəngin təcrübə əldə edilmişdir. Rayonda mini soyuducular quraşdırılmışdır. Yetişdirilən çiyələk orada lazımi temperatura salınaraq xüsusi maşınlarla xarici ölkələrə ixrac edilir.

Hazırda rayonda 427 hektar çiyələk sahəsi mövcuddur. Keçən il 9 min 300 ton çiyələk istehsal olunmuş, hər hektarın məhsuldarlığı 218 sentner təşkil etmişdir. Çiyələk sahələrinin suvarılmasında artezian quyularından istifadə edilir. Yazın gəlişi ilə əlaqədar çiyələk sahələrində də işlər gündən-günə artır, becərməyə çıxan işçilərin sayı çoxalır.

## Əkində gecikmək olmaz

Noxud, mərci, lərgə əkinləri Cəlilabad üçün ənənəvi sahədir. Hələ sovetlər birliyi zamanında ayrı-ayrı adamlar onları həyətlərində əkib-becərirdilər. Torpaqlar şəxsi mülkiyyətə verildikdən sonra rayon əhalisi bu bitkilərin də əkilib-becərilməsinə geniş yer verməyə başlamışlar. Vaxtilə az tapılan bu kənd təsərrüfatı məhsullarının istehsalı artmışdır.

Rayon üzrə cari il 3 min 50 hektarda yazlıq dənli-paxlalı bitkilər əkilmişdir ki, bunun da 2 min 800 hektarı noxud, 160 hektarı mərci və 90 hektarı lərgədir. Bir məsələni qeyd etmək lazımdır ki, həmin məhsulların istehsalı və satışı müvafiq qurumlar tərəfindən təşkil və koordinasiya olunmadığından müəyyən çətinliklər yaranır. Belə ki, bir il noxud yaxşı qiymətə satılanda növbəti il çox sayda fermer, torpaq mülkiyyətçisi noxud əkir. Bu dəfə təklif tələbdən çox olduğu üçün məhsulun qiyməti maya dəyərindən qat-qat aşağı düşür. Necə ki 2019-cu ildə sarımsaq əkənlərin başına belə bir iş gəldi. On tonlarla sarımsaq zay olub getdi, fermerlərin zəhməti və çəkdiyi xərc havaya sovruldu.

Bəli, yazın gəlişi ilə Cəlilabad kəndlisinin başını qaldırmağa macalı yoxdur. Hər kəs istəyir ki, toxumu torpağa vaxtında əksin. Bu işdə isə gecikməz olmaz. Çünki toxum torpağa vaxtında düşəndə, aqrotexniki tədbirlər vaxtında görüləndə məhsul da bol olur. Bolluq isə firavanlıq, xoş güzəran deməkdir.

***Seyran CAVADOV, "Azərbaycan"***



# Dövlət dəstəyi səmərə verir

**Ölkəmizdə həyata keçirilən irimiqyaslı islahatlar, dövlət proqramlarının uğurlu icrası, iqtisadiyyata cəlb olunan investisiyaların həcminin ildənilə artması inkişaf prosesini sürətləndirən əsas amillərdəndir.**

Aqrar sahənin inkişafına diqqət, kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi Goranboy rayonunda da bir sıra mühüm nailiyyətlərin əldə olunması ilə nəticələnmişdir. Son bir ildə qazanılan nailiyyətlərə nəzər salaq. Bu müddətdə rayonda kənd təsərrüfatı məhsullarının həcmi 13,8 faiz artmışdır. Bu da dövlət tərəfindən fermerlərə göstərilən diqqət və qayğı nəticəsində əldə olunmuşdur. Rayonda 67 min 258 ton taxıl istehsal olunmuş, orta məhsuldarlıq hər hektarda 31 sentnerə yüksəldilmişdir. Digər sahələrdə də göstəricilər yüksək olmuşdur. 3102 hektar sahədən 7,3 min ton pambıq, 8 hektar sahədən 12,7 ton tütün yığılmış, 8,5 ton barama istehsal olunmuşdur.

Aqrar sahənin inkişafında ölkə rəhbərinin təşəbbüsü ilə rayonda yaradılmış "Region Aqro"nun xüsusi payı vardır. 4,7 min hektar sahəsi olan bu aqroparkın 2 min hektar sahəsində pivot və meyvə bağları üçün damcılama suvarma sistemləri quraşdırılmış, 11 kilometr avtomobil yolu, "Şəmkir Maşın" kanalından su kəməri çəkilmiş, 400 min kubmetr tutumu olan 2 su anbarı, 18 min tonluq taxıl anbarı, toxum-paketləmə zavodu inşa edilmişdir.

Qızılca qəsəbəsində 15 hektar sahədə 4-cü nəsil yeni istixana kompleksi "Kaskad Aqro" fəaliyyətə başlamışdır. Muzdurlar kəndində fəaliyyət göstərən 920 başlıq südlük və damazlıq heyvandarlıq kompleksinin nəzdində süd məhsullarının emalı müəssisəsinin və damazlıq qoyunçuluq təsərrüfatı yaradılır. Bu layihələr reallaşdıqdan sonra ümumilikdə rayonda 150 yeni iş yerinin açılması gözlənilir.

Goranboy rayonu suvarma suyu ilə aztəminatlı rayonlar sırasındadır. Dövlət başçısı bununla bağlı rayonun su ilə təminatı üçün bir sıra tapşırıqlar vermiş və qısa vaxt ərzində bu sahədə də müsbət irəliləyişlərə nail olunmuşdur. Dövlətin maliyyə dəstəyi ilə Şəmkir maşın kanalının 1-ci və 2-ci növbə çəkilişləri başa çatdırılmış, 3-cü növbə çəkilişi üçün layihə-sənədləşmə işlərinə başlanılmışdır. İşlər başa çatdırıldıqdan sonra rayon ərazisində 40 min hektardan çox kənd təsərrüfatına yararlı torpaq sahələrinin suvarılması yaxşılaşacaqdır. Su probleminin aradan qaldırılmasında subartezian quyularından da istifadə olunur. Bu məqsədlə ölkə rəhbərinin sərəncamı ilə rayon ərazisində 72 ədəd yeni subartezian quyusunun qazılması nəzərdə tutulmuş, onlardan 18-i qazılaraq istifadəyə verilmişdir.

Qazanılan uğurlar abadlıq və quruculuq işlərinə də müsbət təsir edir. Rayon mərkəzi, kənd və qəsəbələrin siması dəyişir, küçə və meydanlar yenidən qurulur, çoxmənzilli yaşayış binaları əsaslı şəkildə təmir edilir, sakinlər üçün istirahət guşələri yaradılır. Ötən il Heydər Əliyev adına mədəniyyət və istirahət parkının ərazisi genişləndirilərək yeni yaşıllıq zonası salınmış, parkda 3 minə yaxın gül kolları əkilmiş, oturacaqlar qoyulmuş, 2 yerdə bulaq inşa edilmişdir.

Dövlət başçısının sərəncamı ilə Goranboy şəhərində inşa edilən beşmərtəbəli 40 mənzilli yaşayış binasında isə tikinti işləri başa çatdırılmışdır. Hazırda Dəliməmmədli şəhərində yaşayış binasının və Goranboy Olimpiya İdman Kompleksində tikinti işləri davam etdirilir. Hər iki obyektin ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulmuşdur.

Yol-nəqliyyat təsərrüfatında da başlanan işlər uğurla davam etdirilir. Uzunluğu 40 kilometr olan Goran-Qızılhacılı-Goranboy-Rəhimli-Veyisli-Qazanbulaq-Borsunlu avtomobil yolu yenidən qurulmuş, Sarov, Yəhərçi-Qazaxlar, Buzluq, Mənəşli və Todan avtomobil yollarında cari təmir işləri aparılmışdır.

Bir sözlə, qazanılan nailiyyətlər, aparılan quruculuq işləri rayonda insanların həyat səviyyəsini yaxşılaşdırır, iqtisadiyyatı sürətləndirir, mövcud problemlərinin həllində önəmli rol oynayır.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

## KTN-nin mikroavtobusları səyyar xidmətə başlayıb

Kənd Təsərrüfatı Nazirliyinin (KTN) müasir texnoloji avadanlıqlarla təchiz edilmiş mikroavtobusları bölgələrdə səyyar xidmət göstərməyə başlayıb.

Mikroavtobuslar növbə sistemi, müasir kompüter avadanlıqları, internet təminatı qurğuları, sürətçıxaran cihazlar, qeydiyyat proseduru üçün lazım olan bütün avadanlıqlarla təchiz edilib.

İlk aqrar səyyar xidmət İsmayıllı rayonunun Talıstan kəndində təşkil olunub. Səyyar xidmət zamanı Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində qeydiyyatdan keçmiş, torpaq məlumatlarını və payızlıq əkinləri bəyan etmiş 200 fermerə "Fermer kartı" verilib.

Bugündən etibarən 6 səyyar xidmət mikroavtobusu müxtəlif bölgələrdə eyni vaxtda xidmətə başlayır. Xidməti həyata keçirəcək mütəxəssislər, "Aqrar İnkişaf Könüllüləri"nin, Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları və sürücülər xüsusi təlimlərə cəlb olunublar.

## Pambıqçı fermerlərlə müqavilə bağlanır

Ötən il məhsul tədarükünə və hər hektarın məhsuldarlığına görə pambıqçılıq rayonları arasında ön sıralarda olmuş Bərdə pambıqçıları cari ilin çiyid səpininə hazırlıq görürlər.

AZƏRTAC-ın Bərdə Rayon İcra Hakimiyyətinə istinadən yaydığı xəbərə görə, bərdəli fermerlər 2020-ci təsərrüfat ilinə daha inadla başlayıblar. Artıq 1894 istehsalçı ilə 4 min 529 hektarı "MKT İstehsalat Kommersiya" MMC, 3 min 900 hektarı "Azərpambıq" MMC və 1700 hektarı "P-Aqro" MMC ilə olmaqla 10 min 129 hektarda pambıq əkini üçün müqavilə bağlanıb. Pambıq becəriləcək sahələrin 9 min 914 hektarı qış aylarında şumlanıb, arata qoyulub. Hazırda şumun malalanması işləri həyata keçirilir. Çiyid səpininə aprelin əvvəlində başlanacaq.

## "Aqrar İnkişaf Könüllüləri" əməkdaşlıq haqqında memorandum imzalayıb

"Aqrar İnkişaf Könüllüləri" təşkilatı və "Keçi təsərrüfatçıları" ictimai birliyi birgə əməkdaşlıq haqqında memorandum imzalayıb. Memorandumda ölkəmizdə heyvandarlığın inkişafı istiqamətində yeni birgə layihələrin icrası ilə bağlı tədbirlər öz əksini tapıb.

Əldə olunan razılığa əsasən, tərəflər ölkəmizdə ərzaq təhlükəsizliyinin gücləndirilməsi, heyvandarlığın, xüsusilə intensiv heyvandarlığın inkişafı istiqamətində birgə tədbirlər həyata keçirəcək. "Aqrar İnkişaf Könüllüləri" təşkilatının üzvləri fermerlərin maarifləndirilməsi məqsədilə təlim-seminarların keçirilməsi, onların innovativ təcrübələrlə tanış olması ilə bağlı adıçəkilən ictimai birliyə kömək göstərəcək.

Tədbirdə çıxış edən "Aqrar İnkişaf Könüllüləri" təşkilatının sədri Kamran Əliyev və "Keçi təsərrüfatçıları" ictimai birliyinin sədri Elşən Süleymanov təmsil etdikləri təşkilatların fəaliyyəti və gələcək planları barədə məlumat veriblər. Kamran Əliyev qeyd edib ki, ölkədə aqrar sahə qeyri-neft sektorunun ən aparıcı sahəsi elan olunub. Həyata keçirilən aqrar islahatlar kənd təsərrüfatının daha da inkişafını nəzərdə tutur və bu məqsədlə dövlət tərəfindən böyük dəstək tədbirləri həyata keçirilir. Bu ilin "Könüllülər ili" elan olunduğunu xatırladan sədr vurğulayıb ki, aqrar sahədə ixtisaslaşmış gənc kadrların formalaşdırılması ilə bağlı müxtəlif layihələrin icrası nəzərdə tutulur.

## Sabirabadda istixanalardan 25 tondan çox tərəvəz yığılıb

Son illər Sabirabadda istixana şəraitində yetişdirilən tərəvəz əkininə maraq artıb. Məhsul istehsalçıları bu sahədə əldə etdikləri qazanc hesabına rayonda istixanalar şəbəkəsini ilbəil genişləndirirlər.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzinə istinadən AZƏRTAC xəbət verir ki, hazırda rayonda 32,7 hektar ərazidə 189 istixana kompleksi mövcuddur. Hər il bu istixanalarda 100 tonlarla tərəvəz yetişdirilərək xarici və daxili bazarlara göndərilir. Cari təsərrüfat ilində də istixanalarda tərəvəz boldur. Bir neçə gündür ki, rayonun ayrı-ayrı yaşayış məntəqələrində fəaliyyət göstərən istixanalardan tərəvəz yığımına başlanılıb və qısa müddətdə 25 tondan çox xiyar-pomidor yığılaraq daxili bazarlara göndərilib. Məhsulun qiyməti də təsərrüfat sahiblərini qane edir. Yığılan tərəvəzin demək olar ki, yarıdan çoxu rayonun Qruzna, Suqovuşan və Qaratəpə kəndlərində olan istixanalardan toplanılıb. Hələ istixanalarda məhsul çoxdur. Təxmini hesablamalara görə, tərəvəz bu il ötənilkindən də çox olacaq.

# Kəndlərarası yolların yenidən qurulması davam edir

**Regionların sosial-iqtisadi inkişafı IV Dövlət Proqramı çərçivəsində Ucar rayonunda kəndlərarası avtomobil yollarının yenidən qurulması işlərinə başlanılıb.**

Müsüslü-Təzə Şilyan-Bərgüşad-Bağban-Yuxarı Şilyan-Boyat-Qazyan marşrutu üzrə 3 yaşayış məntəqəsini - Müsüslü, Təzə Şilyan və Boyat kəndlərini birləşdirən yolların uzunluğu ümumilikdə 21,4 kilometrdir.

IV texniki dərəcəyə uyğun yenidən qurulan Müsüslü, Təzə Şilyan və Boyat kəndlərinin avtomobil yolları əsasən qara örtük və çınqıl örtükdən ibarət idi. Uzun müddət əsaslı şəkildə təmir edilmədən istifadə olunan yolların yatağı və örtüyü deformasiyaya uğramış, çalalar və çökmələr əmələ gəlmiş, çiyin hissələrin eni azalmışdır. Hazırda Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən sadalanan problemlərin aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Tikinti norma və standartlarına uyğun olaraq, torpaq işləri yekunlaşandan sonra yolun 130 min kvadratmetr sahəsinə 2 laydan ibarət yeni asfalt-beton örtük döşənəcək. Ardınca isə hərəkətin normal təşkili üçün yol nişanı və məlumatverici lövhələrin, siqnal dirəklərinin quraşdırılması, üfiqi nişanlanma xətlərinin çəkilməsi işlərinin aparılması planlaşdırılır.



Müsüslü, Təzə Şilyan və Boyat kəndlərinin avtomobil yolları 3 yaşayış məntəqəsinin 7 mindən artıq əhalisinin, həmçinin bu yoldan istifadə edən vətəndaşların Bakı-Ələt-Qazax-Gürcüstan ilə dövlət sərhədi avtomobil yoluna rahat və təhlükəsiz çıxışına şərait yaradacaq, rayon mərkəzinə və ölkənin istənilən istiqamətinə gediş-gəlişi asanlaşdıracaq, kənd təsərrüfatı məhsullarının bazarlara tez və xarab olmadan daşınmasına imkan verəcək.

# Tanınmış hüquqşünas alim

Min illərdir ki, bütün müdrik insanlar, müqəddəs kitablar, müqəddəs simalar insanlara deyir ki, o cəmiyyətdə ki, mənəvi dəyərlər öndə oldu, o cəmiyyət özü-özünü ahəngdar şəkildə tənzimləyir. Əksinə olduqda isə xeyli problemlər yaranır, hər tərəfdə arzu olunmaz hallar gündən-günə artır. Mənəvi dəyərlərin öndə olmasında isə mənəviyyatlı insanlar mühüm rol oynayır. Ona görə də öz davranışı, fəaliyyəti, əməlləri ilə mənəvi dəyərlərimizin daşıyıcısı olan insanlar xalqımızın sərvəti hesab edilir. Belə insanlarımızdan biri də hüquq elmləri doktoru, professor, AMEA-nın Azad Həmkarlar İttifaqının sədri Habil Qurbanovdur.



Habil müəllim 1955-ci il mart ayının 14-də Ağdam şəhərində anadan olub. Orta məktəbi də Ağdamda bitirib. 1975-ci ildə Azərbaycan Pedoqoji İnstitutunu fərqlənmə diplomu ilə başa vurub. Azərbaycan Elmlər Akademiyasında fəaliyyətə başlayıb. 1975-76-cı illərdə orduda xidmət edib. Ordudan tərxis olunduqdan sonra, o zaman üçün ciddi həyat məktəbi olan komsomol sıralarında rəhbər vəzifələrdə çalışıb. Bu sahədəki uğurlu fəaliyyətinə görə 1980-ci ildə keçmiş SSRİ Daxili İşlər Nazirliyinin Bakı Xüsusi Orta Milis Məktəbinə işə dəvət olunub və 1990-cı ilə qədər sıravi milis işçisindən rəis müavini vəzifəsinədək yüksəlib. Eyni zamanda hüquq sahəsində təhsilini davam etdirərək 1988-ci ildə Moskvada, SSRİ Daxili İşlər Nazirliyinin Akademiyasında dissertasiya müdafiə edib hüquq elmləri namizədi alimlik dərəcəsi alıb.

Belə bir ziyalının yetişməsində təbii ki, onun boya-başa çatdığı ailənin, el-obanın, qəlbən, ruhən bağlı olduğu mədəniyyətimizin, vətənə məhəbbətinin böyük rolu vardır. “Ot kökü üstə bitər” atalar sözü həm də Habil müəllimə aiddir. Atası Surxay Qurbanov öz davranışları, fəaliyyəti, şücaəti ilə hər zaman el-obada böyük hörməti, nüfuzu olan bir insan idi. Böyük Vətən müharibəsinin cəsur döyüşçülərindən biri olmuşdur. Sovet İttifaqı Qəhrəmanı adına layiq bilinsə də, xain əllərin hesabına bir neçə başqa belə soydaşlarımız kimi ona da maneçilik yaradıblar. “Qırmızı ulduz”, “Birinci dərəcəli Vətən müharibəsi” ordenləri, “İgidliyə görə” medalı ilə təltif olunub. Müharibədən sonrakı dövrlərdə - 1977-ci ildə vəfat edənə qədər yüksək rəhbər vəzifələrdə və təhsil sahəsindəki fəaliyyətinə görə Qarabağ bölgəsində böyük hörmət qazanıb. “Qabaqcıl maarif xadimi”, “Əməkdar müəllim” olub.

Habil Qurbanov 1990-cı illərdən başlayaraq fəaliyyətini prokurorluq orqanlarında müxtəlif rəhbər vəzifələrdə davam etdirib. 1997-ci ildə isə yenə də Moskva şəhərində, Rusiya Federasiyası Baş Prokurorluğu “Qanunçuluğun və Hüquq qaydalarının qorunmasının problemləri” Elmi-tədqiqat İnstitutunda dissertasiya müdafiə edərək hüquq elmləri doktoru adını alıb.

Sonrakı əsas fəaliyyəti təhsil sahəsində olub. 2010-cu ildə Azərbaycan Respublikası Prezidenti yanında AAK-ın qərarı ilə professor elmi adına yiyələnib. Həmin ilin oktyabr ayından başlayaraq fəaliyyətini AMEA-da davam etdirib. Əvvəllər AMEA-nın Fəlsəfə İnstitutunda “Dövlət və hüquq nəzəriyyəsi, mülki hüquq və mülki proses” şöbəsinin müdiri vəzifəsində çalışıb. Daha sonra Hüquq və İnsan Haqları İnstitutunda fəaliyyət göstərib.

O, ölkənin savadlı, təcrübəli hüquqşünaslarından, alimlərindən biridir. Professor tituluna layiq səviyyədə seçilən mütəxəssis və olduqca təmkinli insandır. Kimsə onun hansı məsələdəsə səsini qaldırdığını, kimi isə incitdiyini xatırlaya bilməz. Habil müəllim, eyni zamanda, kifayət qədər tələbkar insandır və öz tələblərini olduqca mədəni şəkildə irəli sürür və istədiyinə nail olur. Təşkilatçı bir insandır. İstənilən bir çətin problemin həllində kifayət qədər sanballı, yaradıcı təklifləri olur. Məsuliyyətli adamdır, irəli sürdüyü təkliflərin əksəriyyətinin həyata keçməsində özü də böyük fəaliyyət göstərir.

Habil Qurbanov respublikamızda ilk dəfə olaraq 1996-cı ildə Müstəqil Azərbaycanın yeni cinayət qanunvericiliyinin (ümumi hissə) layihəsini hazırlayıb ictimaiyyətin müzakirəsinə çıxarıb. Həmin layihədə irəli sürülən təkliflərin bir çoxu 1999-cu ildə qəbul edilən Cinayət Məcəlləsində öz əksini tapıb.

O, 230-a qədər elmi məqalənin, 12 monoqrafiya, 5 dərslik və dərs vəsaitinin müəllifidir. 3 monoqrafiya və 55 elmi məqaləsi xarici ölkələrdə dərc olunub.

Habil müəllim həm də geniş ictimai fəaliyyət göstərir. 2009-cu ilin aprel ayında Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyasının, 2009-cu ilin dekabr ayında Avropa Təbiət Elmlər Akademiyasının həqiqi üzvü seçilib. BMT-nin Beynəlxalq Narkotizmlə Mübarizə Təşkilatının üzvüdür. Rusiya Federasiyasının Ədliyyə Nazirliyi nəzdindəki Hüquqi İnformasiyalar Elmi Mərkəzinin *“Правовая информатика”, “Мониторинг провоприменения”*, həmçinin *“Государственная служба и кадры”, “Закон и право”, “Образование. Наука. Научные кадры”* jurnallarında redaksiya heyətlərinin üzvü kimi çalışır. Moskva şəhərində akademik İ.N.Bloxin adına Beynəlxalq Elmi-Təcrübə Birliyinin nəzdində yaradılmış Dissertasiya Şurasının, Rusiya Professorlar Cəmiyyətinin üzvüdür.

Onun respublikamızda idmanın inkişafında da mühüm xidməti olub. 1993-2008-ci illərdə AFFA-nın Futzal (mini futbol) və Hüquq Komitələrinin sədri olub. 1998-ci ildə Azərbaycan Futzal Federasiyasını yaradıb. “Qarabağ futbol veteranları” Klubunun təsisçisi və prezidentidir.

AMEA-da fəaliyyət göstərdiyi dövrdə, hər zaman öz uğurlu fəaliyyəti ilə fərqlənən Habil Qurbanov 2017-ci ildən, eyni zamanda, AMEA-nın Azad Həmkarlar İttifaqında əvvəlcə sədr müavini, daha sonra isə sədr vəzifəsinə seçilib. Onun təşkilatçılığı ilə mütəmadi olaraq AMEA-nın əməkdaşlarının pulsuz tibbi müayinələrdən keçirilməsi və ilk təşkilatlara ilkin tibbi yardım üçün lazım olan dərman preparatlarının alınıb paylanması, idman tədbirləri, ərzaq və kənd təsərrüfatı mallarının yarmarkası, aztəminatlı işçilərə maddi yardımların verilməsi, elmi işçilərin yubileylərinin qeyd olunması, ehtiyacı olanların sanatoriya və istirahət evlərinə, yay aylarında əməkdaşların azyaşlı uşaqlarının istirahət düşərgələrinə göndərilməsi, bütün bayramların ilk təşkilatlarda yüksək səviyyədə qeyd olunması və digər tədbirlər həyata keçirilir.

Savadlı, təcrübəli hüquqşünas, yüksək intellektli alim kimi onun fəaliyyəti AMEA əməkdaşları tərəfindən hər zaman təqdir edilir.

***Əhməd QƏŞƏMOĞLU***

# AMEA-da Azərbaycançılıq Elmi-İdeoloji Mərkəzi yaradılıb

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Rəyasət Heyətində Azərbaycançılıq Elmi-İdeoloji Mərkəzinin yaradılması və fəaliyyət istiqamətləri ilə bağlı müşavirə keçirilib.**

AMEA-dan AZƏRTAC-a bildirilib ki, Prezident İlham Əliyevin siyasi-ideoloji çağırışlarının işığında yeni yaradılmış mərkəzin əhəmiyyətindən danışan AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev müşavirənin məqsədindən söz açıb. Bildirib ki, azərbaycançılığın müstəqil Azərbaycan dövlətinin ideya əsasını təşkil etməsi, onun bütün dünya azərbaycanlılarının birlik və həmrəylik ideologiyasına çevrilməsi Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətidir. Azərbaycançılıq ideologiyasında xalqımızın milli maraqlarının və dövlətçilik mənafeyinin əks olunduğunu və böyük tarixi əhəmiyyətə malik olduğunu bildirən akademik Ramiz Mehdiyev milli maraqlara cavab verən azərbaycançılıq məfkurəsinin dilimizin, mədəniyyətimizin, milli-mənəvi dəyərlərimizin yaşadılmasına, eləcə də gənc nəslin bu məfkurə əsasında tərbiyə olunmasına xidmət göstərdiyini xüsusi vurğulayıb.

İdeya və ideologiyanın xalqların, cəmiyyətlərin həyatında öz spesifik xüsusiyyəti və mahiyyəti etibarilə bir-birindən fərqləndiyini deyən akademik Ramiz Mehdiyev azərbaycançılıqla bağlı yazılan kitab və məqalələrdə, o cümlədən mediada səsləndirilən fikirlərdə müxtəlif yanaşmaların olduğunu bildirib. Akademiya rəhbəri bu məfkurənin elmi cəhətdən araşdırılması üçün AMEA-nın tərkibində ictimai əsaslarla yaradılan yeni mərkəzdə azərbaycançılıq ideologiyasının siyasi, tarixi, fəlsəfi və ədəbi baxımdan öyrənilməsinin, bu sahədə tədqiqat və təbliğat işlərinin aparılmasının vacibliyini diqqətə çatdırıb.

Müşavirədə çıxış edən AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli akademiyada belə bir mərkəzin yaradılmasını mühüm elmi-tarixi hadisə kimi səciyyələndirib. Elmi-İdeoloji Mərkəzin qarşısında xalqımızın çoxəsrlik milli dövlətçilik ənənələrinin, azərbaycançılıq ideyasının idealdan ideologiyaya qədərki formalaşma, inkişaf proseslərini tədqiq və təbliğ etmək kimi vacib məsələlərin dayandığını bildirib. Akademik müstəqil dövlət ideologiyasının araşdırılmasında akademiyanın Humanitar və İctimai Elmlər bölmələrinin alimlərinin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edib. Ölkə elmində, xüsusən də Milli Elmlər Akademiyasında azərbaycançılıqla əlaqədar aparılmış tədqiqatların sistemli xarakter daşımadığı və konseptual tədqiqatlara ciddi ehtiyac duyulduğu nəzərə çatdırılıb.

Sonra çıxış edən Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov, Qafqazşünaslıq İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Musa Qasımlı, AMEA-nın müxbir üzvü Könül Bünyadzadə, Fəlsəfə İnstitutunun direktoru, fəlsəfə elmləri doktoru İlham Məmmədzadə, İqtisadiyyat İnstitutunun direktoru, iqtisad elmləri doktoru Nazim İmanov, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi, fəlsəfə elmləri doktorları Rəfiqə Əzimova, Faiq Ələkbərli, tarix elmləri doktoru Eynulla Mədətli və digərləri yeni qurumun elmi-tarixi əhəmiyyətindən ətraflı bəhs edərək azərbaycançılıq konsepsiyasının tarixi köklərinin, elmi-ideoloji əsaslarının öyrənilməsi və təbliği, Azərbaycan xalqının çoxəsrlik milli dövlətçilik ənənələrinin tədqiqi və ümumiləşdirilməsi, azərbaycançılıq anlayışının elmi-nəzəri şərhi və vəzifələrin müəyyən olunması istiqamətində mülahizələrini və təkliflərini səsləndiriblər.

Tədbirin sonunda AMEA Rəyasət Heyətinin nəzdində yaradılmış Azərbaycançılıq Elmi-İdeoloji Mərkəzi tərəfindən “Azərbaycançılıq idealı: ideyadan ideologiyaya” mövzusunda elmi konfransın təşkili, “Azərbaycançılıq: mənşəyi, formalaşma prosesləri və milli dövlətçilik ideologiyasına çevrilməsi” mövzusunda monoqrafiyanın hazırlanması və nəşri, dövri mətbuatda və elmi nəşrlərdə azərbaycançılıq məsələlərinə həsr edilmiş məqalələrin hazırlanıb çap edilməsi, “Azərbaycançılıq: tarixdə və müasir dövrdə” adlı seminarların mütəmadi olaraq keçirilməsi qərara alınıb.

Azərbaycançılıq Elmi-İdeoloji Mərkəzinin sədri AMEA-nın prezidenti, akademik Ramiz Mehdiyev, sədr müavini AMEA-nın birinci vitse-prezidenti, akademik İsa Həbibbəylidir.

# Atəşkəs rejimi 27 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikasının Noyemberyan rayonunun Şavarşavan kəndində, İcevan rayonunun Berkaber, Ayqeovit kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Quşçu Ayrım, Qızılhacılı, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəlilər kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Acarlı, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistan ordusu Qazaxda yaşayış evlərini atəşə tutub, düşmən cavab atəşi ilə susdurulub

Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədində düşmən tərəfinin təxribatları davam edir.

Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən bildiriblər ki, martın 13-də saat 11:45 radələrindən başlamaqla Qazax rayonunun Abbasbəyli kəndində yaşayış evləri və mülki nəqliyyat vasitələri Ermənistanın İcevan rayonunun Berkaber, Lalaqux və Sevkar kəndləri yaxınlığında yerləşən silahlı qüvvələrinin bölmələri tərəfindən iriçaplı silahlardan intensiv atəşə tutulub.

Düşmən təxribatının qarşısı alınıb, yaşayış məntəqəmizə qarşı atəşin açıldığı Ermənistan silahlı qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub.

Hazırda əməliyyat şəraiti sərhəd döyüş məntəqələrimizin nəzarəti altındadır.

# Ermənistanda referendum xaosu davam edir

## İşğalçı ölkədə daxili qarşıdurma daha gərgin mərhələyə keçir

*Əvvəli 1-ci səh.*

Amma ermənilər həmin faktları real həyatlarında hiss etmirlər. Qeyd olunur ki, Paşinyan axşam saatlarında ayrı-ayrı ailələrin mənzillərinə baş çəkir. Lakin baş nazirin elə ilk ziyarətləri acı təəssürat yaradıb. Çünki əksər ailələr Paşinyana kameralar qarşısında problemlərini açıq şəkildə bildirirlər. Əslində, bunlar Paşinyanı qane etməsə də, o, yalan vədlər verməkdə israrlıdır.

Aylardır qara paltarlı qadınlar hökumət binasına gəlir, saatlarla baş nazirin kabinetinin pəncərələri altında dayanır və onların tələblərinə məhəl qoyulmamasından şikayət edirlər. Şübhəsiz ki, Paşinyan bunlardan məlumatsız deyil. Şikayətə gələn erməni əsgər anaları övladlarının həyatına olan təhlükələrdən, onların ac saxlanılmasından şikayətçidirlər. Bunları eşitmək istəməyən Paşinyan əvəzində nə edir? Axşamlar mənzilləri gəzərək televiziya kameraları qarşısında insanlardan necə yaşadıqlarını və ya hansı problemlərinin olduğunu soruşur.

Ermənistan Respublika Partiyası sədrinin müavini Armen Aşotyan yerli mediaya açıqlamasında bu prosesləri populist Paşinyan hakimiyyətinin məntiqinə uyğun bir hal kimi dəyərləndirib. Onun sözlərinə görə, bütün dövrlərdə belə olub: uğursuzluq və səriştəsizliklərini gizlətməyə çalışanlar həmişə ölkədaxili düşmənə ehtiyac duyublar: “Paşinyanın xalqa “yedirtmək” istədiyi “Ermənistanın 30 illik siyasi kursu və inkişaf hədəfləri” yalandan başqa bir şey deyil. Populist vədlər və şüarlar hesabına ölkə əhalisini 5 milyona çatdırıb onların aylıq məvaciblərini 7 dəfə artırmaq mümkün deyil. Belə görünür ki, Paşinyanın əlindəki “sehrli çubuq” artıq kəsərdən düşməkdədir. Armen Aşotyan deyib ki, aprelin 5-də keçiriləcək referendumda təmsil olunduğum partiya iştirak etməyəcək.

Bu gün Ermənistanda sosial-iqtisadi sahədə çöküş getdikcə sürətlənməkdədir. Yerli media otel sənayesi və qida xidməti sektorunun da çökdüyünü etiraf edib. Vurğulanır ki, bir müddət əvvəl Ermənistanda ilin “yüksək” iqtisadi göstəricilərlə başladığını xalqa “müjdələyən” Paşinyan belə görünür ki, əslində, ili ciddi iqtisadi böhran və fors-major hallarla başlamış oldu. Yazılır ki, bu gün Ermənistan hakimiyyəti dünya ölkələrinin təcrübəsinə istinad edərək qlobal iqtisadi problemlərin iqtisadiyyatlarına mənfi təsirini minimuma endirmək üçün fövqəladə vəziyyətdə işləməlidir. Yəni heç olmasa, özünü iqtisadi zərbələrdən qorumağa çalışmağa imkan verən böhran əleyhinə tədbirlər planı hazırlanmalıdır. Budan əlavə, hökumət büdcə xərclərində ehtiyatlı olmalıdır. Görünür, Paşinyan böhranı hələ də qavramamaqda çətinlik çəkməkdədir. Bununla belə, böhranın baş nazir tərəfindən fərq edilməməsi inandırıcı görünmür. Amma o, resurssuz bir ölkənin rəhbəri kimi buna qarşı hansı vasitələrdən yararlanmaqda acizdir.

Bütün bunlar Paşinyanı perspektivdə heç də asan günlər gözləmədiyini deməyə əsas verir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***


## “Azərpoçt” MMC tabeli poçt müəssisələrinin mal-materiallarla təmin edilməsi üzrə

## *tender elan edir*

LOT1: Ofis avadanlıqlarının satın alınması
LOT2: Posterminalların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, http://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Tenderdə iştirak etmək istəyənlər aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplsunu dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə əldə edə bilərlər.

**Hər bir iddiaçı tenderdə iştirak haqqı kimi:**
**LOT1: 200 AZN**
**LOT2: 250 AZN**
**məbləğində pul vəsaitini aşağıdakı bank hesabına köçürməlidir:**
**“Azərpoçt” MMC**
**VÖEN: 9900037711**
**Bankın adı: “Azərpoçt” MMC**
**Kodu: 690001**
**VÖEN: 9900037711**
**Müxbir hesab: AZ76NABZ01350100000000094944**
**Hesab №-si: AZ82AZPO99995381000420000125**
**S.W.I.F.T.Bik: AZPOAZ22**
**İştirak haqqı hər LOT üzrə ayrı-ayrılıqda ödənməlidir.**

İddiaçılar tərəfindən ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə həmin dövrü əhatə edən bank arayışı);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının anoloji iş təcrübəsini təsdiq edən sənədlər, təqdim olunacaq malların mənşə və uyğunluq sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi. Təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır;*
- *iddiaçının tender təklifinin bank təminatı (zərflər açıldığı gündən ən azı 60 bank günü müəyyən edilir və təklifin qiymətinin ən azı 1 (bir) faizini təşkil etməlidir).*

İddiaçılar konsorsium yaratmaqla tenderdə iştirak etmək istəyirsə, konsorsium barədə müqavilə və ya razılaşma, eləcə də konsorsium iştirakçısı olan bütün şirkətlər barədə yuxarıda göstərilən zəruri sənədləri (məlumatları) təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) **10 aprel 2020-ci il saat 15:00-dək,** tender təklifini və tender təklifinin bank təminatını isə **20 aprel 2020-ci il saat 15:00-dək** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş təklflər dövlət satınalmalarının vahid internet Portalında nəzərə alınmayacaqdır.

İddiaçıların təklifləri **21 aprel 2020-ci il saat 15:00-da** açılacaqdır. Təkliflərin açılışı dövlət satınalmalarının vahid internet Portalında virtual iclas formatında aparılacaqdır.

Elektron satınalmanın hər bir iştirakçısına onun təklifinin açılmasını və qiymətləndirilməsini müşahidə etmək üçün bərabər şərait yaradılır.

Tenderlə əlaqədar istənilən məlumatı əldə etmək üçün aşağıdakı şəxsə müraciət etmək olar:
Oktay İsmayılov - Tender komissiyasının üzvü
(tel: +99412-493-56-00, faks: +99412-493-00-37).

***Tender komissiyası***



## Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası

### “Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının ərazisində buraxılış məntəqəsi və baş plan həllinə görə abadlaşma işləri”nin aparılması məqsədilə keçirilən elektron

## *açıq tenderə dəvət edir*

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: səmərəli tender təklifinə, yüksək keyfiyyətə, təmir sahəsində iş təcrübəsi, müqavilənin vaxtında yerinə yetirilməsi, iddiaçının maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**BANKIN ADI: KAPİTAL BANKIN GƏNCLİK FİLİALI**
**KOD: 200189**
**VÖEN: 9900003611**
**MÜXBİR HESABI: AZ37NABZ01350100000000001944**
**SWİFT BİK: AIIBAZ2X**
**TƏŞKİLAT: AZƏRBAYCAN DÖVLƏT BƏDƏN TƏRBİYƏSİ VƏ İDMAN AKADEMİYASI**
**H/HESABI: AZ20AIIB38090019440138430118**
**VÖEN: 1500374911**

**İştirak haqqı 850.00 ( səkkiz yüz əlli ) manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi(təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *müvafiq texnikanın işlək vəziyyətdə mövcudluğu, işçi qüvvəsinin olması;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri (natorial qaydada təsdiq edilmiş);*
- *iddiaçıların müvafiq fəaliyyət növünün həyata keçirilməsi üçün lisenziyaya və ya icazəyə malik olması, müvafiq mallar və xidmətlər üzrə mənşə və uyğunluq sertifikatlarının olması;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 9 aprel 2020-ci il saat 11:00-da, tender təklifi və bank təminatı sənədlərini 17 aprel 2020-ci il saat 11:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 20 aprel 2020-ci il saat 11:00-da açılacaqdır.İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Bakı Şəhər İcra Hakimiyyəti
## “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi
## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, aşağıda göstərilən LOT üzrə tender təkliflərini dövlət satınalmaları vahid internet portalı vasitəsilə təqdim etməlidirlər.

**LOT-1: İşıqlandırma üçün lazımi mal-materialların alınması**

Tender iştirakçılarının ixtisas göstəricilərinin müqayisəsi zamanı “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununun 6.2 maddəsində göstərilən meyarlara üstünlük veriləcək. Tenderdə iştirak etmək istəyənlər hər LOT üçün 800 manat məbləğində iştirak haqqını sifarişçinin bankdakı hesablaşma hesabına köçürdükdən sonra dövlət satınalmaları vahid internet portalından tenderin əsas şərtlər toplusunu ala bilərlər. Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

**İştirak haqqı aşağıdakı hesaba köçürülməlidir:**

**Təşkilat: “Bakı Şəhər İşığı” Elektrik Şəbəkə müəssisəsi**
**Beynəlxalq Bankın Yasamal filialı**
**Kod: 805562**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWIFT BIK IBAZAZ2X**
**H/h: AZ93IBAZ38010019449667485216**
**VÖEN: 9900013961**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək istəyənlər 14.04.2020-ci il saat 14:00-dək aşağıdakı sənədləri dövlət satınalmaları vahid internet portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək:

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması;*
*- tenderin əsas şərtlər toplusuna əlavə olunmuş standart formalara uyğun müvafiq məlumatlar.*

İddiaçılar LOT üzrə tender təkliflərini **22.04.2019-cu il saat 14:00-a** qədər dövlət satınalmaları vahid internet portalına yerləşdirməlidir.

Tenderlə əlaqədar məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

**Əlaqələndirici şəxs: Xələf Hacıyev**
**Telefon: (012) 5654980**

***Tender komissiyası***

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri Uşaq Evləri İdarəsi
### yumşaq inventar, yataq ləvazimatları və müxtəlif növ geyimlərin satın alınması məqsədilə
## *açıq tender elan edir*

Yumşaq inventar, yataq ləvazimatları və müxtəlif növ geyimlərin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 600 (altı yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İstiqlaliyyət küçəsi, 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Məmmədova Raya Yusif qızı, tel:492-53-06.

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu Fond 7Y**
**Büdcə Təsnifatının kodu 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- iddiaçının tender iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifinin dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
*- iddiaçının ixtisas göstəriciləri;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçının son bir il ərzində gördüyü işlər barəsində məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **24 aprel 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə **05 may 2020-ci il saat 16:00-a** qədər İstiqlaliyyət küçəsi, 18 ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklif zərfləri **06 may 2020-ci il saat 09:00-da** İstiqlaliyyət küçəsi, 18 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

“Bakı Metropoliteni” QSC tərəfindən 31.03.2020-ci il tarixdə keçirilməsi nəzərdə tutulan işıqlandırma sistemi üçün avadanlıq və malların satın alınması üzrə açıq tenderin vaxtı 08 aprel 2020-ci il saat 14:30-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 30 mart 2020-ci il saat 14:30-a qədər, tender təklifi və bank təminatını isə 07 aprel 2020-ci il saat 14:30-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## E L A N

“Qlobal Netvorks” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1301584541) öz fəaliyyətinə xitam verərək “Data Plus” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN: 1501208041) qoşulduğunu elan edir.

## E L A N

“Data Plus” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN:1501208041) “Qlobal Netvorks” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN:1301584541) və “CNC.Az” Məhdud Məsuliyyətli Cəmiyyətinin (VÖEN:2901315621) fəaliyyətinə xitam verilərək ona qoşulması nəticəsində yenidən təşkil edildiyini elan edir.

## Bakı Şəhər İcra Hakimiyyəti Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri Uşaq Evləri İdarəsi
### əyani vəsaitlərin, mətbəx ləvazimatları və digər malların satın alınması məqsədilə
## *açıq tender elan edir*

Əyani vəsaitlərin, mətbəx ləvazimatları və digər malların satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərfdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları yüksək kadr potensialına, lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 600 (altı yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu İstiqlaliyyət küçəsi, 18 ünvanından ala bilərlər. Əlaqələndirici şəxs: Məmmədova Raya Yusif qızı, tel:492-53-06.

**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**M/H: AZ41NABZ01360100000000003944**
**SWIFT: CTREAZ22**
**Məktəbəqədər Təhsil Müəssisələri İdarəsi**
**İBAN H AZ27CTRE00000000000002518337**
**VÖEN: 1701374451**
**Büdcə səviyyəsinin kodu Fond 7Y**
**Büdcə Təsnifatının kodu 142340**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*
*- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
*- tender təklifinin dəyərinin 1(bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
*- Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında arayış;*
*- iddiaçının ixtisas göstəriciləri;*
*- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
*- iddiaçının son bir il ərzində gördüyü işlər barəsində məlumat.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru “Dövlət satınalmaları haqqında” qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **24 aprel 2020-ci il saat 16:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş, ikiqat zərfdə **05 may 2020-ci il saat 16:00-a** qədər İstiqlaliyyət küçəsi, 18 ünvanına təqdim etməlidirlər.

İddiaçıların təklif zərfləri **06 may 2020-ci il saat 09:00-da** İstiqlaliyyət küçəsi, 18 ünvanında açılacaqdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Şəki Suvarma Sistemləri İdarəsi tərəfindən LOT-1 üzrə cari təmir işlərində lazım olan mal-materialların, LOT-2 üzrə maşın-mexanizmlərin istismarı üçün lazım olan ehtiyat hissələrinin və sürtkü yağlarının satın alınması məqsədilə 06.02.2020-ci il tarixdə “Azərbaycan” qəzetində dərc olunmuş açıq tenderdə LOT-1 üzrə “Dinar” firması, LOT-2 üzrə “Elşən” MMC qalib elan edilmişdir.

Qalib gəlmiş təşkilatlarla 10.03.2020-ci il tarixdə müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## E L A N

“CNC.Az” Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 2901315621) öz fəaliyyətinə xitam verərək “Data Plus” Məhdud Məsuliyyətli Cəmiyyətinə (VÖEN: 1501208041) qoşulduğunu elan edir.


«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən
rəsmi internet ünvanı:
www.azerbaijan-news.az


## Beynəlxalq aləm

### Türkiyədə “Kapan-8” əməliyyatı başladı



Ağrı, Qars və İqdırda “Kapan-8” əməliyyatı başlamışdır. Əməliyyatda Türkiyə təhlükəsizlik qüvvələrinin 1012 əməkdaşı iştirak edir. Bu barədə TRT telekanalı xəbər verir.

Daxili İşlər Nazirliyinin məlumatında deyilir ki, əməliyyat Ağrı, Qars və İqdırda yerləşən PKK separatçı terrorçu təşkilatı üzvlərinin zərərsizləşdirilməsi məqsədilə başlamışdır.

Qeyd olunur ki, ölkədə terrorizmi tamamilə məhv etmək üçün “Kapan” əməliyyatları xalqın fəal dəstəyi ilə qətiyyətlə və uğurla həyata keçirilir.

### Braziliya Prezidenti koronavirusa yoluxdu



Braziliyanın Prezidenti Jair Bolsonaroda koronavirus aşkar edilmişdir. Bu barədə “Nexofin” portalı xəbər verir.

Bundan əvvəl Prezident Administrasiyasının kommunikasiyalar üzrə katibliyinin başçısı Fabio Vaynqarten də eyni xəstəliyə yoluxmuşdur. O, martın 7-də ABŞ-a səfəri zamanı Bolsonaronu müşayiət etmiş və ABŞ lideri Donald Trampla təmasda olmuşdur.

Kanadanın Baş naziri Castin Trüdonun həyat yoldaşı Sofi Qrequar-Trüdo yeni tipli koronavirusa yoluxmuşdur. Qadının vəziyyəti sabitdir, lazımi tədbirlər görülmüşdür. Məlumata görə, Baş nazir Castin Trüdo özünü yaxşı hiss edir. Onda koronavirusa yoluxma əlamətləri yoxdur. Hökumətin başçısı 14 gün ərzində karantində olacaq.

Avstraliyada Daxili İşlər naziri Piter Dattonda koronavirus aşkar edilmişdir. Bu barədə nazirin özü məlumat vermişdir. O, xəstəxanaya yerləşdirilmişdir.

Bu arada dünyada COVID-19-a yoluxanların sayı 135 min nəfərə yaxınlaşmışdır. Yeni tipli koronavirusdan 4990 nəfər vəfat etmiş, 70395 nəfər sağalmışdır.

### BMT Donbasda qeyri-sabit vəziyyətdən və işgəncədən narahatdır



Ukraynanın şərqində qeyri-sabit vəziyyət hökm sürür, münaqişə zonasında əvvəlki kimi atəşkəs rejimi pozulur. Bu barədə BMT-nin Ukraynadakı insan hüquqları üzrə monitorinq missiyası məlumat vermişdir.

Missiyanın başçısı Matilda Boqnerin dediyinə görə, hər iki tərəfdən ən çox pozuntu halları yanvar və fevral aylarında olmuşdur.

Bundan əlavə, BMT həm separatçıların, həm də Kiyevin nəzarətində olan ərazilərdə “əsassız həbs və işgəncə verilməsi” halları qeydə almışdır. Boqner tərəfləri atəşkəs rejiminə və beynəlxalq humanitar hüquq normalarına ciddi riayət etməyə çağırmışdır.

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondu
### “Sifarişçinin tərəf kimi iştirak etdiyi məhkəmə işləri üzrə Azərbaycan Respublikasının Ali Məhkəməsində vəkillik fəaliyyətinin müstəsna səlahiyyətində olan xidmətlər istisna olmaqla hüquqi məsləhətlərin verilməsi, vəkil ilə müqavilənin (orderin) bağlanmasının hüquqi müşayiət edilməsinə dair xidmətlər”in satın alınması ilə bağlı
## *kotirovka sorğusu elan edir*

İddiaçı öz təklifini “Dövlət Satınalmaları haqqında” Azərbaycan Respublikası Qanununa uyğun hazırlamalıdır. Qapalı zərfdə, imzalanıb və möhürlənərək Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fonduna **18 mart 2020-ci il saat 11:00-a** qədər təqdim etməlidir.

Kotirovka təkliflərinin zərfləri **18 mart 2020-ci il saat 12:00-da** Bakı şəhəri, Həsən bəy Zərdabi prospekti, 80 ünvanında açılacaqdır.

**Əlavə məlumatı tender komissiyasından ala bilərsiniz. Əlaqə telefonu: 012-530-29-03**

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Milli Elmlər Akademiyasının Birinci vitse-prezidenti, akademik İsa Həbibbəyli Naxçıvan Dövlət Universitetinin Azərbaycan tarixi kafedrasının müdiri, AMEA-nın müxbir üzvü Zəhmət Şahverdiyevə, bacısı

**XOŞQƏDƏM XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi iş yoldaşları Əmir Aslanova anası

**MARA ASLANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

25 saylı Nizami ikinci seçki dairəsi Dairə Seçki Komissiyasının kollektivi DSK-nın sədri Heydər Vəliyevə əzizi

**NAZİLƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan





AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6958
Sifariş 862
Qiyməti 40 qəpik